

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 71 (8387) CÜMƏ AXŞAMI, 16 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Dövlətə və xalqa layiqli xidmət məramı

## İlham ƏLİYEV: "Biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik"

**Dünyanı çənginə alan koronavirus infeksiyasına yoluxma halı bütün ölkələrdə yüksələn templə davam etməkdədir. Statistikaya əsasən 200-dən artıq ölkədə yoluxma sayı 2 milyon nəfərə çatıb. Ölənlərin sayı isə 125 mini ötüb. Bir vaxtlar Çinə yardım etmək təşəbbüsü ilə çıxış edən ABŞ indi istər yoluxma, istər ölüm sayına görə ilk yerdə qərar tutub. İtaliya, İspaniya, Fransa, Almaniya kimi ölkələrdə yoluxma sayı 100 mindən artıqdır.**

### Azərbaycanda vəziyyət nəzarət altındadır

Koronavirusun həm də dövlətləri ağır sınaq qarşısında qoyduğunu desək yanılmarıq. Reallıq ondan ibarətdir ki, yuxarıda sadalan inkişaf etmiş Qərb dövlətlərinin modern səhiyyə sistemi və inzibati orqanları virusun yayılmasının indiki təhlükəli həddə yüksəlməsinin qarşısını zamanında ala bilməyib. Ona görə artıq səhiyyə infrastrukturu və tibbi personal baxımından yoluxanların müalicəsində ciddi çətinliklər yaşanır. Əslində, onların hər biri kifayət qədər modern səhiyyə sisteminə malikdir. Elm və texnologiyanın inkişafının ən yüksək mərhələsinə gəlib çatdığımız, dördüncü sənaye inqilabının nəticələrindən bəhs etdiyimiz müasir dövrümüzdə bəşəriyyət üçün hər hansı epidemiyanın qarşısının alınması mümkünsüz görünmürdü. Lakin koronavirus göstərdi ki, insanlar yanılırlar və müasir tibb hələlik bu mərəzin qarşısında acizdir.

Dekabr və yanvar aylarında uzaqdan müşahidə etdiyimiz koronavirus təəssüf ki, fevralın sonlarında Azərbaycanda da qeydə alındı. Əslində, burada qəribə nəsə axtarmağa da lüzum yoxdur. Ən azından ona görə ki, Azərbaycan dünyaya açıq, demokratik dövlətdir. Vətəndaşların xaricə, eləcə də əcnəbilərin ölkəmizə gediş-gəlişində heç bir problem yoxdur. Lakin əsas odur ki, virusun əlaməti görünən ilk gündən Azərbaycan hökuməti onun yayılmasının qarşısını almaq üçün dərhal hərəkətə keçdi, koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradıldı. Həmçinin qabaqlayıcı tədbirlərin görülməsi və respublikanın bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları təşkil olundu. Qonşu ölkələrlə gediş-gəlişin, məktəblərin, bağçaların, idman zallarının, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması, park və ictimai istirahət yerlərinə girişin qadağan olunması, kütləvi tədbirlərin keçirilməsinin təxirə salınması, martın 24-dən xüsusi karantin rejiminin, aprelin 5-dən isə ölkədə hərəkət məhdudiyyətinin tətbiqi kimi qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlər Azərbaycanda koronavirus infeksiyası probleminin bir sıra ölkələrdəki kimi təhlükəli hal almasının qarşısını aldı.

*Ardı 2-ci səh.*

# Dövlət başçıları fikir mübadiləsi apardılar



**Aprelin 15-də Gürcüstan tərəfinin təşəbbüsü ilə Gürcüstan Prezidenti Salome Zurabişvili ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev videobağlantı formatında danışıblar.**

**Prezident Salome ZURABİŞVİLİ:**

- Cənab Prezident, mən Sizinlə belə çətin bir zamanda deyil, daha yaxşı vaxtlarda söhbət etmək istərdim. Ümidvaram ki, şəxsən Siz, ailəniz, əməkdaşlarınız - hamınız yaxşısınız. Ümid edirəm ki, biz bu çətin şəraitdə əməkdaşlığımızı mümkün olan qədər tez bir zamanda davam etdirəcəyik.

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm, xanım Prezident. Sizi görməyə çox şadam. Əlbəttə ki, bu cür ünsiyyət qurmaq çox qeyri-adidir. Lakin bu, zamanın özəlliyidir. İndi bizə bir-birimizi görməyə və bir-birimizlə söhbət etməyə imkan verən yeni texnologiyaların olması çox yaxşı bir haldır. Əməkdaşlığınıza görə Sizə təşəkkür edirəm. Mən ölkəmizə Sizin çox uğurlu rəsmi səfərinizi xatırlayıram.

Gürcüstan Prezidenti Gürcüstana göstərilən həmrəyliyin ifadəsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev hər zaman olduğu kimi koronavirus pandemiyası şəraitində də ölkələrimiz və xalqlarımızın bir-birinin yanında olaraq həmrəylik nümayiş etdirməsinin önəmini bildirdi. Dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər və bu istiqamətdə görüləcək işlər ətrafında fikir mübadiləsi apardılar.

Söhbət zamanı Azərbaycanla Gürcüstanın beynəlxalq tranzit dəhlizinin önəmli iştirakçıları olduğu bildirilərək, ticarət əlaqələrinin, tranzit-nəqliyyat sahəsində işlərin davam etdirilməsinin vacibliyi vurğulandı.

Dövlət başçıları iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində gələcək əməkdaşlığın perspektivlərini də müzakirə etdilər.

***Prezidentin Mətbuat xidməti***

# Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyəyə minnətdarlıq edib



**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Türkiyənin paytaxtı Ankarada yerləşən Atakule qülləsində Azərbaycan Respublikasının dövlət bayrağının işıqlandırılması ilə əlaqədar qardaş ölkəyə minnətdarlığını bildirib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Qardaş Türkiyəyə dərin minnətdarlığımı bildirirəm. Ölkələrimiz daim bir-birinin yanındadır - həm sevincli günlərdə, həm də çətin sınaq günlərində. Bizim birliyimiz, bizim gücümüz bundadır. Xalqlarımıza möhkəm cansağlığı, ölkələrimizə sülh və əmin-amanlıq arzulayıram. Qoy, Uca Tanrı dünyamızı qorusun!"

# Gürcüstan Prezidenti dəstəyə görə Azərbaycan Prezidentinə və xalqına təşəkkür edib

Gürcüstan Prezidenti Salome Zurabişvili koronavirusla mübarizədə göstərilən həmrəyliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və xalqımıza minnətdarlıq edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan dövlətinin başçısı özünün "Twitter" səhifəsində bildirib.

**Salome Zurabişvili** yazır: "Bu gün Bakıda, Heydər Əliyev Mərkəzinin binası üzərinə Gürcüstanın bayrağı videoproyeksiya olunub. Bu, Azərbaycan xalqının həmrəyliyinin ən yaxşı mesajıdır. Biz birlikdə daha güclüyük!"

Salome Zurabişvili göstərilən dəstəyə görə Azərbaycan Prezidentinə bir daha təşəkkür edib.

# Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq edirlər

**Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.**

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Ağcabədi rayonunun sakini **Natiq Əlişov** yazır: "Möhtərəm cənab Prezident, dünyanı bürümüş yeni koronovirus pandemiyasının respublikamızda yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz bütün tədbirlər bir daha sübut etdi ki, hər zaman olduğu kimi Azərbaycan Prezidenti öz xalqının yanındadır. Əminik ki, bu birlik bizə belə ağır sınaqdan qələbə ilə çıxmağa imkan verəcək. Rəhbərliyinizlə vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronovirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Koronavirusa qarşı mübarizə tədbirləri ilə bağlı imzaladığınız sərəncamlar, açılan yeni xəstəxanalar, yeni müəssisələr göstərir ki, Azərbaycan bu çətin sınaqdan alnıaçıq çıxacaq. Dövlətimiz bu gün də öz vətəndaşının sağlamlığını qorumaq və pandemiyanın yayılmasının qarşısını almaq üçün səylərini davam etdirir. Xalqımızın bu bəladan minimum zərərlə xilas olacağına əminliklə inanırıq. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma bütün qarabağlılar adından təşəkkürümü bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Uca Allah Sizi və Azərbaycan xalqını qorusun".

*Ardı 2-ci səh.*



# 20 mindən çox tələbəni sevindirən qərar

### Onların illik təhsil haqqı dövlət tərəfindən ödəniləcək

Bəşəriyyət gözəgörünməz düşmənlə - koronavirusla mübarizə aparır. Ancaq bu gün qarşıda duran ən mühüm vəzifə yalnız bu təhlükənin dəf olunması, onun gətirdiyi bəlalardan - xəstəliklərdən insanları qorumaq deyil. Azərbaycan dövləti respublikamızda koronavirusa qarşı mübarizə tədbirlərini yüksək səviyyədə, böyük həssaslıqla həyata keçirməklə yanaşı, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması, problemlərinin aradan qaldırılması ilə bağlı mühüm işlər görür.

*Ardı 5-ci səh.*

# Dövlətin siyasətinin mərkəzində vətəndaşın dayandığı bu günlərdə də dönə-dönə təsdiqlənir

Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların maraqlarının dayandığı COVID-19 adlı bəla ilə mübarizə apardığımız bu günlərdə də dönə-dönə təsdiq olunur. İnsanların sağlamlığının və rahatlığının təmin olunması üçün vacib və təxirəsalınmaz tədbirlər həyata keçirilir. Heç kəs diqqət və qayğıdan kənarda qalmır.

Xüsusi karantin rejimi dövründə ələlxüsus yaşı 65-dən yuxarı ağsaqqal və ağbirçəklərimizin pandemiyadan qorunması məqsədilə sosial xidmət işçiləri səfərbər ediliblər. Bu kateqoriyadan olan 15 mindən çox tənha yaşayan şəxsə evində gündəlik sosial xidmətlər həyata keçirilir. Onlara əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və ev təsərrüfatına aid digər işlərlə bağlı xidmətlər göstərilir. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 9 sosial xidmət müəssisəsində isə 1000-dən çox şəxs stasionar şəraitdə reabilitasiya yönümlü sosial xidmətlərlə təmin olunur.

Bir sözlə, həkimlərimiz, polis işçilərimiz kimi sosial xidmət sahəsində çalışanlar da hər gün iş başındadırlar.

*Ardı 5-ci səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

Biz birlikdə güclüyük!

# Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq edirlər

*Əvvəli 1-ci səh.*

Beyləqan rayonunun sakini, 2-ci qrup Qarabağ müharibəsi əlili, ehtiyatda olan leytenant **İlham Əliyev** yazır: Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin ölkəmizi COVID-19 virusundan qorumaq üçün atdığınız hər addımınızı alqışlayırıq. Siz bizi bizdən də çox düşünürsünüz. Ona görə də Sizə ailəmiz adından təşəkkür edirəm. Bu çətin günlərdə də xalqımıza arxa-dayaq oldunuz, təhlükəsizliyimiz üçün əlinizdən gələni əsirgəmədiniz. Biz Sizinlə fəxr edirik. Yaxşı ki, dövlətimizin başındasınız. Ulu Tanrı Sizi və ailənizi qorusun!".

Tərtər rayonunun Səhləbad kəndinin sakini **Zahid İbrahimov** dövlətimizin başçısının hər zaman xalqımıza diqqət və qayğı ilə yanaşdığını vurğulayaraq yazır: "Hörmətli cənab Prezident, Siz Prezident seçildiyiniz gündən həmişə xalqın yanında olmusunuz, əhalinin qayğıları ilə yaşamışınız. "El gözü tərəzidir", - deyiblər atalar. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün hazırlanan sosial paketlərdə bütün təbəqədən olan insanların - işsizlərdən tutmuş sahibkarlara qədər hər kəsin dövlətdən ayrılan payı var. Bunun üçün də Sizə minnətdarıq. Siz Azərbaycan kimi böyük bir ailəyə başçılıq edir, bu ailənin heç bir üzvünü unutmursunuz. Bütün dünyanın COVID-19 pandemiyası ilə üz-üzə qaldığı bir vaxtda yenə də xalqımızın dolanışığını unutmadınız, dövlət öz yardım əlini xalqdan əsirgəmədi, maddi köməklə bərabər bizə mənəvi cəhətdən də dəstək oldu, "evdə qal, sağlam qal" dedi. Gələcəyimiz naminə hər kəs bu çağırışa qoşulub karantin rejiminə ciddi əməl etməlidir ki, çətin günləri arxada qoyaq, yenidən doğma Vətənimizin inkişafı naminə, möhtərəm Prezidentimiz, Sizə - qəlbi daim xalqı ilə döyünən rəhbərə dəstək olaq. Mən fəxr edirəm, qürur hissi keçirirəm ki, Sizin kimi Prezidentimiz var. Tanrı Sizi qorusun!".

Tərtər rayonunun Bəyimsarov kəndinin sakini, 1-ci dərəcəli "Əmək" ordenli fermer **Fazil Vəliyev** yazır: "Möhtərəm cənab Prezident, bu çətin günlərdə - ölüm kabusunun insanların aldığı hər nəfəsdə dolaşarkən xalqla birlikdə olduğunuza, COVID-19 pandemiyasının ölkəmizdə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə minnətdarıq. İnanırıq ki, dünya tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcək.

Çox hörmətli Prezidentimiz, biz fermerlər Sizin yürütdüyünüz siyasəti dəstəkləyirik, ətrafınızda sıx birləşmişik. Çünki Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!". Tanrı Sizi qorusun!".

Bakı şəhəri Yasamal rayonunun sakini **Veysəl Vəliyev** ölkəmizdə koronavirusun geniş yayılmaması istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayaraq yazır: "Çox hörmətli, qayğıkeş Prezidentimiz, hazırda dünya dəhşətli bir bəla ilə üz-üzədir. Azərbaycan bu qlobal problemdən az itki ilə çıxmaq üçün ciddi addımlar atır. Bütün bunlar Sizin həyata keçirdiyiniz səmərəli tədbirlərin nəticəsidir.

Mən O.Kutafin adına Moskva Dövlət Hüquq Universitetində magistr təhsili alıram və Sizin göstərişinizlə martın 27-də xüsusi reyslə Rusiyadan ölkəmizə gətirilən tələbələrdən biriyəm. Bizi Heydər Əliyev Beynəlxalq Aeroportundan birbaşa Atletlər Kəndinə apardılar. Əvvəlcədən burada hər cür şərait yaradılmışdı. Ölkəmizin malik olduğu bu imkanlar məni qürurlandırdı. Çünki böyük dövlətlərin koronavirusa qarşı mübarizədə necə aciz qaldıqlarını hamı görür. Ancaq xaricdən gələn tələbələrimizə burada göstərilən diqqət və qayğı mükəmməl idi. Səliqə-sahman, vaxtında düzgün qidalanma, müayinə, həkimlərin xüsusi diqqəti məni çox sevindirdi. Karantində 14 gün qaldıqdan sonra evimizə göndərildik. Artıq ailəmə qovuşmuşam.

Cənab Prezident, karantin müddətində mənə göstərilən diqqət və qayğıya görə həm öz adımdan, həm də valideynlərimin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Nə yaxşı ki, Azərbaycanımızın Sizin kimi lideri var. Siz hər zaman Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Ona görə də mən bir Azərbaycan gənci olaraq Sizinlə fəxr edirəm. Bir hüquqşünas kimi söz verirəm ki, yürütdüyünüz müstəqil siyasətinizin hər zaman dəstəkçisi olacağam. Tanrı Sizi qorusun!".



Tərtər rayonunun İsmayılbəyli kəndinin sakini **Eldar Əsədov** yazır: "Əziz Prezidentimiz, biz tərtərlilər həmişə Sizi dəstəkləyirik. Çünki Siz ən ağır günlərdə bizimlə olub, xalqa həmişə dəstək göstərmisiniz. COVID-19-un dünyanı ağuşuna aldığı bir vaxtda Siz yenə də bizimləsiniz. İnsanların sağlamlığını qorumaq üçün ölkəmizdə xüsusi karantin rejimi tətbiq olunub. Biz yaxşı başa düşürük ki, sağlam qalmaq üçün özümüzü müvəqqəti olaraq təcrid etməliyik. Evdə qalmalıyıq ki, normal həyatımıza sağlam dönək.

Bu çətin dönəmdə əhalinin müxtəlif təbəqələrindən olan insanlara göstərdiyiniz dəstəyə görə Sizə minnətdarıq. Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var".

Ucar rayonunun sakini **Niyaz Xəlilov** qabaqlayıcı tədbirlər nəticəsində xalqımızın bu bəladan xilas olacağına əminliyini bildirərək yazır: "Möhtərəm cənab Prezident, dünyanı cənginə almış pandemiya ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin aciz qaldığı, bəzi dövlətlərin bu virusa biganə yanaşdığından çətin vəziyyətə düşdüyü halda, Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanımızda bütün qabaqlayıcı tədbirlər görüldü. Siz Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması istiqamətində qətiyyətli addımlar atır, qərarlar qəbul edirsiniz. İnanırıq ki, bəşəriyyət, xalqımız tezliklə bu bəladan xilas olacaq.

Cənab Prezident, Azərbaycan vətəndaşı olmağımızla, Sizin kimi Prezidentimizlə qürur duyuruq. Allah Sizi qorusun!"

Daşkəsən rayon sakinləri **Abbas Tağıyev, Saleh Qurbanov, Oktay Cəfərov** və **İdris Bağırov** da koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində görülən işlərin təqdirəlayiq olduğunu qeyd edirlər. Onlar yazırlar: "Hörmətli cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində Sizin rəhbərliyinizlə görülən işlər təqdirəlayiqdir. Qəbul edilən qərarlara uyğun olaraq rayonumuzda da xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara şərtsiz əməl olunması üçün zəruri tədbirlərin görülməsi davam etdirilir. Küçə və prospektlərdə, ayrı-ayrı ərazilərdə, yaşayış binalarında və inzibati binalarda dezinfeksiya işləri aparılır. Aztəminatlı ailələrə maddi yardım göstərilir, əhalinin sağlamlığının qorunması üçün mühüm tədbirlər görülür.

Cənab Prezident, qabaqlayıcı tədbirlərin vaxtında keçirilməsi üçün verdiyiniz qətiyyətli tapşırıqlar öz səmərəsini verir. Azərbaycan bu bəladan da üzüağ çıxacaq.

Rayonumuzun bütün sakinləri adından görülən işlərə görə minnətdarlığımızı bildirərək gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq".

Laçın rayonunun Köhnəkənd kənd sakini, hazırda Abşeron rayonunda yaşayan **Yavər Səlimov** Köhnəkənd kəndinin sakinləri adından dövlətimizin başçısına minnətdarlıq edərək yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün ölkələri lərzəyə salan koronavirus pandemiyasının qarşısının alınması istiqamətində verdiyiniz göstərişlər nəticəsində ölkəmizdə bu virusa qarşı mübarizə çox yüksək səviyyədə təşkil olunmuş, qısa zaman kəsiyində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmış, hər şeyə rəğmən əhalinin sağlamlığının qorunması ön plana çəkilmişdir. Həmişə olduğu kimi, bu dəfə də Sizin uzaqgörənliyiniz sayəsində təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bu pandemiyadan daha az itki ilə çıxmaq üçün əməli işlər görülmüşdür. Məhz bunun nəticəsi olaraq ölkəmiz ölüm və koronavirusa yoluxanların sayına görə dünya dövlətləri arasında sonuncu yerləri bölüşür.

Möhtərəm Prezident, işləməyən, yaşı 65-dən yuxarı, tənha və aztəminatlı ailələrə göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Apardığınız həm xarici, həm daxili, həm də sosial-iqtisadi siyasət əməksevər və qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilmiş və bundan sonra da qiymətləndiriləcək".

Gəncə şəhər sakinləri **Rəşad Əliyev, Nurlana Bəşirova, Akif Salmanov** və **Telman Quliyev** görülən işlərin vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılandığını bildirərək yazırlar: "Çox hörmətli cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində atdığınız addımlar və verdiyiniz sərəncamlar vətəndaşlar tərəfindən böyük rəğbətlə və alqışla qarşılanır. Bu işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz Sizə və dövlətimizə hər zaman güvənmişik. Pandemiya dövründə də belə oldu. Çox sağ olun ki, Sizə bəslənən ümidləri və güvəni hər zaman doğruldur, xalqımıza ruh yüksəkliyi bəxş edirsiniz. Ulu Tanrı hər zaman dayağınız olsun, cənab Prezident!".

Biləsuvar rayonunun sakini **Məhərrəməli Kazımlı** yazır: "Hörmətli Prezidentimiz, Sizin uzun illərdir ölkəmizin səhiyyə sahəsində həyata keçirdiyiniz əsaslı islahatlar öz bəhrəsini verməkdədir. Yeni səhiyyə ocaqlarının istifadəyə verilməsi, ölkəmizdə yüksək səviyyəli tibbi heyətin formalaşmasına hesablanmış dövlət siyasəti imkan verəcək ki, koronavirus infeksiyasının daha az zərərlə aradan qaldırılmasına nail olaq. Bu çətin günlərdə modul tipli tibb müəssisələrinin yaradılması, tibbi maska istehsalı müəssisəsinin istifadəyə verilməsi Sizin çevik fəaliyyətinizin bariz nümunələridir. Biz - Biləsuvar veteranları Sizin bu fəaliyyətinizi alqışlayırıq. Cənab Prezident, qeyd etmək istəyirik ki, bütün bu tədbirlərin həyata keçirilməsində Sizinləyik. Biz birlikdə güclüyük!"

# Dövlətə və xalqa layiqli xidmət məramı

## İlham ƏLİYEV: "Biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik"

*Əvvəli 1-ci səh.*

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə Prezident İlham Əliyev bu barədə deyib: "Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi".

### Vətəndaş sağlamlığına diqqətin nümunələri

Ümumiyyətlə, koronavirusla mübarizə məsələlərində ilk gündən Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, problemi xüsusi diqqət mərkəzində saxlaması göz önündədir. Məhz dövlət başçısının müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizdə pandemiyanın təsirinin vaxtında azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb. İlham Əliyevin təşəbbüsü ilə zamanında qabaqlayıcı tədbirlərin görülməsi ölkənin idarəetmə sistemindəki uğurlu siyasətin bariz nümunəsidir. Azərbaycanın hər bir vətəndaşının sağlamlığının və təhlükəsizliyinin qorunması istiqamətində həyata keçirilən tədbirlər, xüsusi karantin rejimi müddətində aztəminatlı ailələrə və işsizlərə yardım edilməsi xalqımıza diqqət və qayğının göstəricisidir.

İlham Əliyevin koronavirusla mübarizə və problemin sosial-iqtisadi həyata təsirinin azaldılması ilə bağlı imzaladığı fərman və sərəncamlar bütövlükdə bu istiqamətdə görülən işlərin miqyasının kifayət qədər geniş olmasından xəbər verir. Bu fərman və sərəncamlarla martın 19-da Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və buraya Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 milyon manatın ayrılması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının artırılması, 575 çarpayıdan ibarət olan "Yeni klinika" xəstəxanasının virusa yoluxan xəstələrin ixtiyarına verilməsi, Sumqayıt Kimya Sənaye Parkında yaradılan tibbi maska istehsalı müəssisəsinin fəaliyyətə başlaması, koronavirusla əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan, yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi, pandemiya ilə mübarizə sahəsində həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə modul tipli 6 xəstəxananın quraşdırılması üçün 14,8 milyon manatın ayrılması Prezident İlham Əliyevin koronavirus infeksiyasının qarşısının alınmasına və vətəndaşların sağlamlığının qorunmasına göstərdiyi yüksək diqqətin nümunələridir.

### Sosial və milli həmrəyliyin təcəssümü

Onu da qeyd edək ki, indiyədək 15 mindən artıq Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyyə edilərək xüsusi çarter reysləri ilə vətənə gətirilib. Bu missiyanın da başladılması və vətəndaşlarımızın dövlət hesabına xarici ölkələrdən qayıdışının təmin edilməsi məhz Prezident İlham Əliyevin bir lider olaraq hər bir azərbaycanlının taleyinə həssas münasibətinin göstəricisidir.

Qeyd edək ki, indiyədək Koronavirusla Mübarizəyə Dəstək Fonduna 112 milyon manat vəsait yığılıb. Qısa müddətdə fonda bu qədər vəsaitin yığılması Azərbaycan vətəndaşlarının Prezident İlham Əliyevin ətrafında sıx səfərbər olmalarının, eləcə də ölkəmizdəki sosial və milli həmrəyliyin göstəricisidir.

Müşavirədə görülən işlərə münasibət bildirən Prezident bu mübarizədə qalib gələcəyimizi bəyan etdi: "Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq".

Prezidentin rəhbərliyi və təşəbbüsü ilə koronavirusla mübarizə istiqamətində görülən işlər ölkə ictimaiyyəti tərəfindən böyük razılıq və dərin rəğbətlə qarşılanır. Respublikanın hər yerindən, bütün şəhər və rayonlardan vətəndaşlar İlham Əliyevə ünvanladıqları məktublarında həyata keçirilən bütün tədbirləri yüksək qiymətləndirir, dövlət başçısına minnətdar olduqlarını bildirirlər. Bəli, məhz vaxtında atılan addımların nəticəsidir ki, Azərbaycanda koronavirus infeksiyasının yayılmasının digər ölkələrdə olduğu kimi təhlükəli səviyyəyə çatmasının qarşısı alınıb və dövlətimizin bu problemin öhdəsindən layiqincə gələcəyi şübhəsizdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan iqtisadiyyatının koronavirus böhranından da minimum itkilərlə çıxacağı şübhəsizdir

## Prezident İlham ƏLİYEV: "İlin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək"

**Nüfuzlu beynəlxalq ekspertlər, maliyyə qurumları həyəcan qaldırır, ürəkaçmayan proqnozlar verirlər: dünya iqtisadiyyatı növbəti resessiya, ötən əsrin 30-cu illərindən bəri görünməyən böhran ərəfəsindədir. O üzdən böhrana əsas səbəb olan koronavirusla mübarizə tədricən yerini iqtisadiyyata resessiyadan artıq dəyməyə başlamış ziyanların minimuma endirilməsi üçün görulən tədbirlərə verir. Yəqin elə buna görədir ki, COVID-19 tam geri çəkilməmiş bəzi ölkələr karantin qadağalarını bir qədər yumşaltmağa başlamışlar.**



Bu məsələdə işi mürəkkəbləşdirən cəhətlərdən biri də koronavirusun inkişaf etmiş ölkələri daha çox vurmasıdır. Heç kim inkar etməz ki, ÇXR, ABŞ, Böyük Britaniya, İtaliya, Fransa, Almaniya və İspaniyanın dünya iqtisadiyyatında payları qalan ölkələrinkindən çoxdur ki az deyil. Tək bu səbəb kifayətdir ki, indiki resessiyanın fəsadlarından heç bir ölkənin kənarda qalmayacağı qənaətinə gələk. Amma bu zaman bütün ölkələri də tərəzinin eyni gözünə qoymaq iddiasından uzağıq. O ölkələr ki, iqtisadiyyatlarını gözlənilən və gözlənilməz, yerli və kənar şoklardan sığortalamaq üçün vaxtında maksimum tədbirlər görüblər, onların həmin fəsadlardan minimum ziyan görəcəkləri şübhəsizdir. Əksinə, o ölkələr ki, iqtisadiyyatlarını cari tələblər, çağırışlar çərçivəsində idarə edibilər, onlarda bu böhranın ağır keçəcəyi qaçılmazdır.

Və çox yaxşı, sevindirici haldır ki, Azərbaycan birincilərə aiddir. Buna növbəti dəfə əmin olmaq üçün Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr edilən videokonfransın materiallarına nəzər salmaq kifayətdir.

Əvvəla, onu qeyd edək ki, bu konfrans internet üzərindən keçirilməsi səbəbindən təkcə formasına görə fərqli deyildi. O, həm də məzmunca əvvəlki tədbirlərdən seçilirdi və təbii ki, hər iki fərqin səbəbi koronavirus idi. Bu üzdən dövlət başçısının giriş nitqini COVID-19-la başlaması, bütövlükdə videokonfransda həmin problemin sosial-iqtisadi nəticələrinin aradan qaldırılması yollarının əsas müzakirə mövzusu olması təsadüfi deyildi. "Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problem yaşanır", - deyən Prezident Azərbaycanın da dünyanın bir parçası olduğunu nəzərə çatdırmış və ölkəmizdə COVID-19-la mübarizə tədbirlərinin vaxtında görülməsinin müsbət nəticələrini vurğulamışdır: "... qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər bütün addımlar düzgün istiqamətdə atılmışdır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır".

Lakin Prezident İlham Əliyev ölkənin videokonfransda iştirak edən iqtisadi blokunun rəhbərlərinə bundan nəinki arxayınlaşmamağı, hətta dərs götürməyi tövsiyə etmişdir. "Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Ona görə bu bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, ibrət götürməliyik", - deyən dövlət başçısı həmçinin bu yöndə Azərbaycanın atdıgı addımlarının bir neçə ölkə tərəfindən təcrübə kimi öyrənilib istifadə edildiyini də müsbət fakt kimi diqqətə çatdırmışdır.

Bununla belə, Prezident ölkəmizin pandemiyadan ziyanla çıxacağını istisna etməmişdir: "O ki qaldı, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinə, bu da qaçılmazdır". Yeri gəlmişkən, artıq 150-dən çox ölkə koronavirus səbəbindən yaranmış böhranın nəticələrini aradan qaldırmaq üçün Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına maliyyə yardımı sarıdan müraciət etmişdir və çox diqqətçəkən faktdır ki, Azərbaycan həmin sırada yoxdur. Bu isə bizim iqtisadi durumumuzun dünya ölkələrinin üçdə ikisindən daha dayanıqlı olmasının növbəti dəfə təsdiqi deməkdir.

Məhz həmin dayanıqlı iqtisadiyyatın sayəsində ölkəmiz bu mürəkkəb günlərdə, xüsusən də neft gəlirlərinin azaldığı bir vaxtda məlum səbəblər üzundən əhaliyə dəyən maddi ziyanı maksimum qarşılamaq üçün tədbirlər görür. "Əlbəttə ki, biz ilk növbədə bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik", - deyən Prezident həmin məqsəd üçün böyük məbləğdə vəsait ayrıldığını və pandemiyaya görə işini itirmiş 600 mindən çox insana maddi kömək göstərildiyini diqqətə çatdırmışdır. Bundan savayı, cari ilin ilk rübündə 2,3 milyon vətəndaşımız 1,5 milyard manat sosial ödənişlər almışdır. Bu dövr ərzində həmçinin bütün növ əmək pensiyalarının sığorta hissəsi 16,6 faiz indeksassiya olunmuşdur.

Pandemiya əleyhinə dövlət başçısının imzaladığı sərəncamla yaradılan işçi qrupunun hazırladığı tədbirlər planı üzrə isə 400 milyon manatlıq paket ayrılmışdır. Videokonfransda bu barədə danışan Əmək və Əhalinin Sosial Müdafiə naziri Sahil Babayev bildirmişdir ki, pandemiya zamanı əsas vəzifələrdən biri həm dövlət, həm də özəl sektorlarda iş yerlərinin qorunmasıdır. Nazirin verdiyi məlumata görə, dövlət sektorunda 910 min nəfərin məşğulluğu tam təmin olunmuşdur. Qeyri-dövlət sektorunda da sözügedən istiqamətdə müvafiq tədbirlər görülmüş və nəticədə həmin sektor üzrə bağlanan əmək müqavilələrinin sayı xeyli artmışdır ki, bu da iş yerlərinin rəsmiləşdirilməsində, deməli, həm də qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın birinci rübdə iqtisadi göstəricilərinə gəldikdə, xüsusən mart ayının çətinliklərinə baxmayaraq, bütünlükdə bu dövr üzrə nəticələr müsbətdir. Bu barədə dövlət başçısı da videokonfransda nikbinliklə danışmışdır. " ... biz yanvar, fevral aylarını çox yaxşı göstəricilərlə başa vurmuşuq", - deyən Prezident iki ayda ölkə üzrə ÜDM istehsalının ümumilikdə 3, o cümlədən qeyri-neft sektorunda 7, rüb ərzində isə həmin göstəricilərin müvafiq olaraq 1,1 və 3 faiz artdığını nəzərə çatdırmışdır.

Amma bunlar da müsbət nəticələrin hamısı deyil. İlin ilk üç ayında ölkə üzrə qeyri-neft sənaye sektorunda 23, əhalinin gəlirlərində 7 faiz artım qeydə alınmışdır. Büdcə daxilolmaları üzrə proqnoza da artıqlaması (310 milyon manat) ilə əməl olunmuşdur. Ən əsası, videokonfransda dövlət başçısı tərəfindən qarşıdakı aylarda sosial sahədə hədəflənmiş bütün məqsədlərə nail olunacağı bəyan edilmişdir: "Bildirməliyəm ki, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar olunmayacaq".

*Raqif MƏMMƏDLİ,*
*"Azərbaycan"*

# Masallı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Masallı rayonunun əhalisi 36274 nəfər olan 10 yaşayış məntəqəsində *(siyahı əlavə olunur)* əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 700,0 (yeddi yüz) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2020-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamına Əlavə***

## Masallı rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Babaser kəndi | 1 | 1704 |
| 2. | Bala Təklə kəndi | 1 | 534 |
| 3. | Əhmədli kəndi | 1 | 1610 |
| 4. | Ərkivan qəsəbəsi | 1 | 17788 |
| 5. | Köhnə Alvadı kəndi | 1 | 4244 |
| 6. | Qodman kəndi | 1 | 1413 |
| 7. | Öncəqala kəndi | 1 | 2342 |
| 8. | Sərçuvar kəndi | 1 | 1818 |
| 9. | Şərəfə kəndi | 1 | 2641 |
| 10. | Tüklə kəndi | 1 | 2180 |
| **Cəmi** | | **10** | **36 274** |

# Həyatın bütün sahələrindəki inkişaf Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir

**Xəbər verildiyi kimi, aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.**



Müşavirə zamanı bir daha məlum oldu ki, ölkəmiz 2019-cu ili böyük uğurla başa vurub və 2020-ci ilin əvvəlindən başlayaraq bütün sahələrdə inkişaf yüksək səviyyədə həyata keçirilir. Azərbaycan Prezidentinin rəhbərliyi ilə başlanmış həm iqtisadi, həm də sosial islahatlar gözlənilən nəticələri verib. Həmin islahatların ardıcıl şəkildə aparıldığı vaxtda bir anda bütün dünyada tüğyan edən koronavirus (COVID-19) epidemiyası müəyyən çətinliklər yaradıb. Belə ki, hazırda bu epidemiyanın dünya iqtisadiyyatını iflic etməsinə baxmayaraq, xəstəliyin ölkəmizdə yarada biləcəyi fəsadlar dövlətimizin başçısının mütərəqqi göstərişləri nəticəsində minimuma endirilib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev deyib.

Adil Əliyev bildirib ki, pandemiyaya qarşı mübarizədə Azərbaycan dünyanın bir çox ölkələrindən fərqli olaraq qabaqlayıcı tədbirlər görüb, düşünülmüş siyasət nəticəsində xəstəliyin yaradacağı fəsadların azalmasına nail olub. Digər tərəfdən, inkişaf da artan xətlə davam etməkdədir. Hazırda ölkəmizdə karantin məqsədilə istifadə edilən otellərlə yanaşı, altı mobil xəstəxananın çox qısa zamanda tikilməsi ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən göstəriş verilib, habelə xəstələrin müalicəsi üçün lazım ola biləcək bütün tibbi avadanlıqların dərhal gətirilməsi tapşırılıb.

Təbii ki, pandemiyanın Azərbaycanla həmsərhəd olan ölkələrdə, həmçinin ticarət tərəfdaşlarımız olan ölkələrdə geniş yayılması, nəticədə sərhədlərin bağlanması iqtisadiyyata mənfi təsirini göstərir. Lakin sevindirici haldır ki, bu gün dünyanın 150-dən çox ölkəsi yardım üçün Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına müraciət etsə də, ölkəmizin adı həmin siyahıda yoxdur. Yəni, bu gün ölkəmiz ən azı dünyanın 150 ölkəsindən daha yaxşı vəziyyətdədir, dünya birliyinin mütləq əksəriyyətinin yardıma ehtiyac duyduğu bir vaxtda əlimizdə olan resurslar bu çətin vəziyyəti idarə etməyə imkan verir.

Hazırda ölkəmizdəki müsbət dinamika göz qabağındadır. Bunun nəticəsidir ki, keçən il dövlət büdcəsinə proqnozda nəzərdə tutulduğundan əlavə 1 milyard manat, bu ilin üç ayında isə 310 milyon manat gəlir daxil olub.

Cənab Prezident müşavirədə cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına nəzər salaraq bir daha bildirdi ki, son üç ayda ümumi daxili məhsulda 1,1 faiz artım, qeyri-neft sektorunda isə 3 faizdən bir qədər çox artım olub. Bütün dünyanın koronavirus pandemiyasına görə böhrana düçar olduğu vaxtda ölkəmizdə həm ÜDM-də, həm də qeyri-neft sektorunda inkişafın qeydə alınması bir daha deməyə əsas verir ki, uğurla aparılan siyasət hər vəziyyətdə və hər cür şəraitdə öz bəhrəsini verəcək.

Təqdirəlayiq məsələlərdən biri də budur ki, Azərbaycan Prezidenti yaranmış vəziyyətlə əlaqədar büdcədə zəruri olmayan layihələrin dayandırılması və ixtisara salınması barədə göstəriş versə də, sosial sahədə heç bir proqramın ixtisar edilməyəcəyini bildirdi. Bu müjdə bir daha onu deməyə əsas verir ki, ölkəmizdə aparılan siyasətin ana xəttini Azərbaycan Respublikasının vətəndaşı tutur, vətəndaşa yüksək qiymət verilir, görülən hər bir iş vətəndaşın sosial rifahının yaxşılaşdırılmasına yönəlib.

Dövlət başçısı müşavirə zamanı pandemiyaya qarşı mübarizə üçün 2,5 milyard manat vəsait ayrıldığını, habelə həmin vəsaitin artırılması ilə əlaqədar heç bir çətinliyin olmadığını bildirdi. Nəzərə çatdırdı ki, lazımi avadanlıqların və ləvazimatların alınması üçün Prezidentin ehtiyat fondundan ayrılmış 97 milyon manat və gələcəkdə ayrılması nəzərdə tutulan 150 milyon manat 2,5 milyard manatın içində deyil.

Bu gün ölkəmizdə sosial sahəyə göstərilən qayğının nəticəsidir ki, orta aylıq əməkhaqqı 28 faiz, orta pensiyanın məbləği 27 faiz artıb. Nəticədə hazırda orta aylıq əməkhaqqı 712, orta pensiya 295, yaşa görə pensiya isə 330 manata yaxındır. Hazırda ünvanlı sosial yardım alan insanların sayı 70 mindən çoxdur.

Onu da qeyd edim ki, bu gün bütün dünyanın gözəgörünməz düşmənə qarşı (COVID-19) mübarizə apardığı bir şəraitdə cənab Prezident məcburi köçkün və şəhid ailələrini də unutmadı, minimum 7 min köçkün ailəsinin və minimum 1500 şəhid ailəsinin yeni mənzillərlə təmin ediləcəyini bildirdi. Bu qayğı Azərbaycan dövlətində bütün sahələrə göstərilən diqqətin nəticəsidir".

Adil Əliyev qeyd edib ki, ölkə başçısının müşavirə zamanı struktur islahatlarına diqqət çəkməsi inkişafın yalnız siyasi-iqtisadi sahələri əhatə etmədiyini bir daha göstərdi. Ölkədə aparılan siyasi islahatların, kadr islahatlarının uğurlu nəticələri göz qabağındadır. Bu islahatlar Prezident Administrasiyasını, Nazirlər Kabinetini, Milli Məclisi əhatə edib. Hakimiyyətin bütün qollarında aparılan islahatlar bir məqsəd daşıyır: idarəetmə mexanizmi təkmilləşsin, gəncləşmə siyasəti geniş tətbiq olunsun, peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin, idarəetmədə inkişafa mane olan bütün hallar aradan qaldırılsın.

Bu ilin fevral ayında Milli Məclisə keçirilən növbədənkənar seçkilər xalqımızın iradəsini ifadə edib, vətəndaşlarımız tərəfindən bəyənilərək dəstəklənib. Parlament seçkilərinin demokratik şəkildə keçirilməsi, habelə VI çağırış Milli Məclisdə müxalifət partiyalarının nümayəndələrinin yüksək vəzifələrdə təmsil olunması onu deməyə əsas verir ki, iqtidar-müxalifət dialoqu sağlam əsaslara söykənib.

Ölkə başçısının tapşırığına uyğun aparılan siyasi kursdan heç kəs kənarda qalmır. Dialoqa qoşulmaq istəyən müxalifət nümayəndələri də demokratikləşmə ilə bağlı çağırışlara müsbət reaksiya veriblər. Bu siyasətin bir tək ana xətti vardır ki, ölkəmizin inkişafı təmin edilsin və vətəndaşların sosial rifahını yaxşılaşdırmaqla doğma Vətənimizi, el-obamızı daha yaşanılası bir yer edək. O ki qaldı, dialoqdan imtina edən kəsimə, onlar özlərini müxalifət adlandırsalar da, məlumdur ki, o şəxslər aparılan siyasətə yox, dövlətə və dövlətçiliyə müxalif insanlardır. Öz "sahiblərindən" aldıqları siyasi sifarişləri bu xalqın əleyhinə düşünmədən yerinə yetirən şəxsləri xalq yaxşı tanıyır və cəmiyyət onları heç cür qəbul etmir. Təbii ki, ölkə başçısının da dediyi kimi, onlara siyasi konfiqurasiyada da yer yoxdur, bunu özləri də başa düşür və qəbul edirlər.

Beləliklə, cənab Prezidentin sədrliyi ilə keçirilən müşavirənin nəticəsində bir daha aydın oldu ki, aparılan uğurlu islahatlar bütün sahələrdə öz nəticəsini verir, bütün sahələrdə inkişaf müsbət dinamika ilə davam edir, iqtisadi vəziyyət nəzarət altında olmaqla yeni ehtiyatlar axtarılır, sosial islahatlar çox uğurlu şəkildə davam etdirilir. Aparılan uğurlu islahatlar ölkəmizin inkişafına, vətəndaşların rifah halının yaxşılaşdırılmasına hesablanıb.

# Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş Nazirinin müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri
Azərbaycan Respublikasının İqtisadiyyat naziri
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri
Azərbaycan Respublikasının Maliyyə naziri
Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri
"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin rəisi.

2. Komissiyaya tapşırılsın ki:

2.1. su ehtiyatlarından istifadə və su təsərrüfatının idarə olunması sahəsində mövcud vəziyyəti təhlil etsin;

2.2. su ehtiyatlarından istifadədə səmərəliliyin artırılmasını, uçotun və idarəetmənin təkmilləşdirilməsini və bu sahədə operativ əlaqələndirməni təmin etsin;

2.3. bu Sərəncamın 2.1-ci və 2.2-ci bəndlərində verilən tapşırıqların icrası üçün müvafiq dövlət orqanlarının (qurumlarının), elmi müəssisələrin (təşkilatların), ixtisaslı mütəxəssislərin, habelə beynəlxalq ekspertlərin cəlb olunmasını təmin etsin;

2.4. görülən işlər barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2020-ci il*

# *İbrahim MƏMMƏDOV:* "Koronavirusla bağlı ilk dəfə olaraq müsbət statistika qeydə alınıb"

Koronavirus infeksiyasının yayılması ilə bağlı ilk dəfə olaraq müsbət statistika qeydə alınıb.



AZƏRTAC xəbər verir ki, bu barədə aprelin 15-də keçirilən mətbuat konfransında Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

O deyib ki, aprelin 12-dən sağalma yoluxmanı üstələyib. Bu, müsbət haldır. Aprelin 12-də ilk dəfə müsbət nəticə qeydə alındı. Aprelin 13-də vəziyyət neqativ olsa da, az fərq oldu. 14-də müsbət nəticə əldə etdik. Ötən həftə durum sabit olub. Xəstələrin sayı 822-844 nəfər arasında dəyişib. Bu da vəziyyətin sabitliyini göstərir. "Amma biz deyə bilmərik ki, belə davam edəcək. Son 5 gündə müsbət statistika mənfi statistikanı əvəzləyir. Bu vaxta qədər əksinə idi. Bu o deməkdir ki, karantin rejiminin nəticələri artıq var. Bu durum bizi ruhlandırır ki, karantin qaydalarına əməl edək", - deyə İbrahim Məmmədov bildirib.

# Xaricdə olan vətəndaşlarımız aprelin 20-dən sonra Azərbaycana gələ biləcəklər

Bunu aprelin 15-də keçirilən mətbuat konfransında Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib. O deyib: "Karantin yerlərimiz dolduğu üçün sərhədlər bağlandı. Aprelin 20-dən sonra xaricdən həftədə 300-400 nəfər qəbul etmək imkanı yaradılacaq. Əsasən Rusiyadan gələnlər gözlənilir. Bunun üçün ayın 17-dən "Evə gedirəm" portalı fəaliyyətə başlayacaq. Rusiyadan gəlmək istəyənlər bu portaldan qeydiyyatdan keçə bilərlər. Aprelin 20-dən sonra bu prosesə başlanacaq. Bundan sonra Türkiyə və digər ölkələrdən də tədricən vətəndaşlar ölkəyə gətirilə bilər. Gətirilən şəxslər 14-21 gün müddətinə karantində saxlanılacaq".

***AZƏRTAC***

# Heydər Əliyev Fondu "Biz birlikdə güclüyük" aksiyası çərçivəsində aztəminatlı ailələrə yardım göstərdi







Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə Heydər Əliyev Fondu "Biz birlikdə güclüyük" aksiyasına başlayıb.

AZƏRTAC xəbər verir ki, aksiyanın məqsədi karantin rejimi dövründə aztəminatlı ailələrə sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək və bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir. Aprelin 14-də "Abşeron Kristal" MMC və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyi ilə həyata keçirilən aksiya çərçivəsində Fondun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri Goranboy, Tərtər və Ağdam rayonlarında yaşayan aztəminatlı ailələrə müxtəlif ərzaq məhsullarından ibarət 1000-dən çox sovqat paylayıb.

Layihə karantin rejimi müddətində bütün regionlar üzrə davam edəcək.






# Karantin müddətinin yaxın vaxtlarda başa çatması və tədrisin bərpa olunması hələlik müzakirə mövzusu deyil

"Sabitləşmənin davam etməsi istiqamətin müsbətə doğru yönəlməsi deməkdir. Lakin karantin müddətinin yaxın vaxtlarda başa çatması və tədrisin bərpa olunması hələlik müzakirə mövzusu deyil".

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 15-də keçirilən mətbuat konfransında Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib. O deyib: "Ola bilər ki, Azərbaycanda vəziyyət yaxşı olar. Amma bu o demək deyil ki, biz karantindən əvvəlki vəziyyətə qayıdaq və dərslər başlansın. Bu, hələ bəlli deyil. Məktəblərin başlanması karantin rejimindən çıxdıqdan sonra mümkündür. Karantin müddətinin yaxın vaxtlarda bitməsi və tədrisin bərpa olunması hələ ki, müzakirə mövzusu deyil".

# Azərbaycanda daha 56 koronavirusa yoluxma qeydə alınıb, 53 nəfər sağalıb

**Azərbaycan Respublikasında 56 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 53 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 1253 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 404 nəfəri müalicə olunaraq sağalıb, 13 nəfər vəfat edib, 836 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 24 nəfərin vəziyyəti ağır, 27 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 75.397 test aparılıb.

# Azərbaycanda karantin rejiminin tədricən ləğvi üçün tədbirlər hazırlanır

Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın aprelin 15-də keçirdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib.

O deyib ki, karantin rejiminin tam aradan qaldırılması halında yenidən kütləvi yoluxmalar baş verə bilər: "Karantin rejimindən tədricən çıxmaqla bağlı müraciət edəcəyik. Bununla əlaqədar xüsusi qaydalar hazırlanaraq ictimaiyyətə açıqlanacaq".

***AZƏRTAC***

# Hazırda Azərbaycanda koronavirusdan sağalma 25 faiz təşkil edir

"Hazırda Azərbaycanda koronavirusa yoluxmuş 836 nəfərin müalicəsi xüsusi rejimli xəstəxanalarda davam etdirilir. Həmin şəxslərdən 17 nəfər reanimasiyadadır ki, onların da 6-sı süni nəfəs aparatına qoşulub".

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

Onun sözlərinə görə, Azərbaycanda görülən tədbirlər və tibb işçilərinin fədakarlığı nəticəsində sağalma faizi bir sıra ölkələrlə müqayisədə yüksəkdir. Belə ki, hazırda Azərbaycanda koronavirusdan sağalma 25 faiz təşkil edir.

Ramin Bayramlı qeyd edib ki, sağalmış şəxslərin yenidən koronavirusa yoluxması da mümkündür. Lakin onlar xəstəliyi yüngül keçirə bilərlər. Ona görə də heç kəsin arxayınlaşmaması lazımdır.

TƏBİB-in İdarə Heyətinin sədri bildirib ki, xəstəliyə yoluxma faktları daha çox 50-60 və 30-40 yaşlı vətəndaşlar arasında qeydə alınır. Qadınlar kişilərə nisbətən daha çox yoluxurlar.

"Ümumilikdə indiyədək ölkəmizdə koronavirus infeksiyasının müəyyənləşdirilməsi məqsədilə 75 min 397 test icra olunub. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ən çox test edən ölkələr arasındadır", - deyə R.Bayramlı bildirib.

# Dağlıq Qarabağda yaşayan sadə ermənilər Ermənistanın çirkin siyasi oyunları üçün alətdir

"Hazırda dünyanın üzləşdiyi ən böyük problem sərhəd tanımayan koronavirus pandemiyasıdır. Azərbaycan dövləti tərəfindən vətəndaşların sağlamlığını və təhlükəsizliyini təmin etmək, onları pandemiyanın yaratdığı sosial-iqtisadi fəsadlardan qorumaq üçün zəruri və qabaqlayıcı addımlar atılır".



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevin yaydığı bəyanatda bildirilib.

Bəyanatda deyilir: "Ölkə üzrə 22 xəstəxana koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb. Mart ayında Azərbaycanın regionlarında - Goranboy, Qazax və Şəmkir şəhərlərində 3 yeni xəstəxana açılıb. Bakıda yeni istifadəyə verilmiş 575 çarpayılıq "Yeni klinika" tibb mərkəzi koronavirus xəstələrinin müalicəsi üçün nəzərdə tutulub. Azərbaycanda koronavirus xəstələrinin müayinəsi üçün 70 mindən artıq test aparılıb. İqtisadi, makroiqtisadi və məşğulluq problemlərinin həlli üçün 600 mindən artıq insanı əhatə edən dövlət dəstək proqramlarının maliyyə həcmi 2,5 milyard manatdır. Qeyd olunanlar Azərbaycanda həyata keçirilən dövlətin dəstəyinin yalnız bir hissəsidir".

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində əsir saxladığı Dağlıq Qarabağın erməni icmasının ölkəmizin həyata keçirdiyi sosial, iqtisadi, səhiyyə və s. layihə və proqramlardan yararlanmasının qarşısının alındığını deyən T.Gəncəliyev bildirib: "Belə ki, bir neçə həftə əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının işğal olunmuş ərazilərimizdə koronavirus xəstəliyinin yayılması barədə məlumat verməsinə və tərəfimizdən edilən xəbərdarlıqlara rəğmən, martın 31-də infeksiya halları gizlədilərək Ermənistanın əlaltısı olan rejim tərəfindən qanunsuz "seçki" şousu keçirildi. Bunun ardınca, Ermənistan infeksiyanın yayılmasını etiraf etsə belə, aprelin 14-də yenidən bütün insanların həyatını təhlükəyə ataraq, "seçki" şousunun ikinci turu da təşkil olundu. Bütün bunlar onu göstərir ki, Dağlıq Qarabağda yaşayan sadə ermənilər Ermənistanın çirkin siyasi oyunları üçün alətdir və oradakı insanların həyatı və sağlamlığı Ermənistanı maraqlandırmır. Ermənistan hakimiyyəti və qondarma rejimin nümayəndələri Qarabağda yaşayan sadə erməni icması üzvlərinin həyatını dəyərsiz sayaraq, onların Azərbaycan vətəndaşları kimi müalicə imkanlarından yararlanmasının qarşısını almaqda davam edir".

Azərbaycan Respublikasının siyasətinin ana xəttini Azərbaycan vətəndaşı və onun maraqlarının qorunmasının təşkil etdiyini bildirən icma rəhbəri qeyd edib: "Bir daha bəyan edirik ki, Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxarıldıqdan sonra Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşayacaq və ölkəmizin vətəndaşı olmağın verdiyi imtiyazlardan bərabərhüquqlu şəkildə yararlanacaqlar".

**Biz birlikdə güclüyük!**



# Prezident-xalq birliyinin təcəssümü

## Koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınmasında həyata keçirilən tədbirlərin dəstəklənməsi vətəndaşların dövlət başçısına ünvanladığı məktublarda da öz əksini tapır

**Azərbaycan xalqı taleyüklü məsələlərin həllində daim dövlətinin və hökumətinin yanında olub. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində dövlət müstəqilliyini bərpa edərkən xalq üzləşdiyi siyasi, iqtisadi, humanitar böhranla əlaqədar Ulu Öndər Heydər Əliyevi heç də təsadüfi yerə köməyə çağırmadı. Xalq bilirdi ki, məhz çətin günlərdə Ümummilli Liderin siyasi iradəsi, qətiyyəti istənilən problemi həll edə bilər. Axı ömrünü və ictimai-siyasi fəaliyyətini xalqın rifahına həsr edən Heydər Əliyev bu inamı, etibarı əməli fəaliyyəti ilə qazanmışdı.**

Bəli, bu gün də Azərbaycan Prezidenti İlham Əliyev xalqının və dövlətinin ona güvəni qarşısında mətinliklə, əzmkarlıqla dayanaraq, "göydən gələn gözə görünməz bəla"dan - koronavirus (COVID-19) pandemiyasından xilas üçün ön sırada mübarizə aparır, "soyuq müharibə"nin gətirdiyi fəsadlardan az zərərlə çıxmaq üçün yollar arayır.

Bütün bunlar xalqın gözləri qarşısında baş verir. Dövlət başçısı və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciətlərinin cavabsız qalmamasının isə xalq-hakimiyyət birliyinin növbəti dəfə təcəssümü olduğunu dünya gördü və hətta təqdir edildi, təşəkkürlər eşidildi.

Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına respublikanın hər yerindən gələn, ardı-arası kəsilməyən təşəkkür dolu məktublar yalnız səmimiyyətin etirafı deyil, həm də dövlət başçısının hər sözünün xalq üçün daim qanun kimi ciddi olmasından soraq verir. Həmin məktublardan bəzi sətirlər bir daha təsdiqləyir ki, xalq dövlətinə və onun başçısına güvənir və inanır. Bu bəladan da tezliklə çıxacaq, birlikdə həmrəylik nümayiş etdirərək iqtisadiyyatın ayrı-ayrı sahələrinə dəyən zərəri aradan qaldıracaq.

Ağdam rayonunun Bakı şəhərində məskunlaşan 35 saylı tam orta məktəbinin müəllimi Aybəniz Zeynalova yazır ki, "hörmətli cənab Prezident, mən Sizin xalqımızın rifahı, vətənimiz Azərbaycanın inkişafı üçün atdığınız hər addımı bəyənir, uzaqgörən siyasətinizi alqışlayıram. Sevinirəm ki, sizin kimi siyasətçinin rəhbərlik etdiyi ölkənin vətəndaşıyam. Cənab Prezident, dünyanı vahiməyə salan koronavirus təhlükəsinin ölkəmizə yayılmaması üçün apardığınız işləri bəyənir və deyirik ki, hamımızdan çox Sizin narahatçılıq keçirməyinizi görməmək mümkün deyil. Axı Siz xalqın taleyinə heç vaxt biganə olmamısınız.

Bu məktubu ünvanlayarkən yadıma N.Gəncəvinin "Yeddi gözəl" əsərindəki Bəhram şah obrazı düşdü: xalqını sevən, onun dərdsərini özününkü bilən bir hökmdar...

Sizin də bizi - Azərbaycan xalqını nə qədər sevdiyinizi çox yaxşı bilirik. Biz də əlimizdə Allahın müqəddəs kitabını tutaraq dualar edirik: qoy Ulu Yaradan Sizləri və bizləri - bütün Azərbaycanımızı qorusun!"

Azərbaycan Texniki Universitetinin tələbəsi Quliyev Zakir Elnur oğlu məktubunda qeyd edir ki, gənc olaraq böyük fərəh hissi duyuram ki, bizim İlham Əliyev kimi dünyada nüfuzu olan, Vətənə, millətə, xalqa, dövlətə bağlı, uzaqgörən siyasi xadimimiz var: "Cənab Prezident! Bu gün də Sizin nə qədər xalqa, dövlətə bağlı olduğunuzu gördük. Dünyada geniş yayılan koronavirus infeksiyası təəssüf ki, Azərbaycanımızdan da yan keçmədi. Dünyanın ən güclü ölkələri belə koronavirus pandemiyası ilə mübarizədə aciz qaldıqları halda, şükürlər olsun ki, bir çox dövlətlərdən fərqli olaraq, Sizin siyasətiniz sayəsində Azərbaycan infeksiyanın yayılmasına qarşı tez reaksiya göstərdi. Pandemiyanın təsirinin azaldılması istiqamətində mühüm addımlar atıldı, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkə daxilində xüsusi karantin rejimi tətbiq edildi. Xalqın rifahı və sağlamlığı üçün mühüm tədbirlər görüldü. Bu qayğınız üçün Sizə təşəkkür edirəm!"

Bu da Abşeron rayonundan Səlimə Rüstəmovanın məktubundan bəzi sətirlər: "Hörmətli cənab Prezident! Bir azərbaycanlı olaraq Sizə təşəkkür edirəm. Hazırda 120-dən çox ölkədə yayılmış koronavirusun bir çox dövlətlərdə qarşısının alınması çətinləşib. Belə bir vəziyyətdə Sizin operativ qərarlarınız və dövlətimizin göstərişləri əsasında görülən işlər bu "gözəgörünməz ölüm"ə qarşı güclü mübarizə tədbirləridir. Azərbaycanda yaşayan insanlara və xaricdə təhsil alan vətəndaşlarımıza olan qayğı və diqqətiniz üçün minnətdarıq. Biz Sizə inanırıq. Bir zaman Ulu Öndər Heydər Əliyev xalqımızı xilas etdiyi kimi, Siz də bizi Allahın izni ilə bu bəlalardan qoruyursunuz. Bir gənc vətənpərvər olaraq Sizinlə böyük qürur hissi keçirirəm".

Bəli, məktublardan da göründüyü kimi, bu çətin günlərdə bizim hər birimizin sağlamlığımızın qorunması üçün bütün zəruri tədbirləri reallaşdıran dövlət başçısının, öz həyatlarını risk altında qoyaraq koronavirusa yoluxmuş xəstələrin müalicəsinə çalışan fədakar həkimlərimizin, eləcə də hələ özlərinə və özgələrinə laqeyd qalaraq küçələrdə maskasız və əlcəksiz gəzən (bəziləri istisna olmaqla) yaşlı, qoca və cavanlara vəziyyətin ciddiliyini aşılayan polislərimizin fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir!

Karantindəki şəxslərin saxlanma şəraitinin yüksək səviyyədə olması bir qədər də optimistliyə stimul verir. Xaricdə olan tələbələrimizin, müəyyən səbəblərdən orada qalmış vətəndaşlarımızın ölkəyə gətirilməsi, onlara diqqət və qayğı birbaşa Azərbaycan dövlətinin başçısı İlham Əliyevin adı ilə bağlıdır.

Nəhayət, Prezident-xalq birliyinin təcəssümü bu gün özünü daha qabarıq şəkildə koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınmasında həyata keçirilən tədbirlərin dəstəklənməsi ilə bağlı vətəndaşların dövlət başçısına ünvanladığı ürək sözlərindən ibarət məktublarda da öz əksini tapır.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# Həmrəylik, məsuliyyət və nizam-intizam

## Azərbaycan yalnız regionda deyil, dünyada koronavirusa qarşı zamanında qabaqlayıcı tədbirlər görən azsaylı dövlətlərdən biridir

Koronavirusla bağlı ölkəmizdə həyata keçirilən tədbirlər mütəşəkkil, məqsədyönlü xarakter daşıyır. Demək olar ki, bütün sahələrdə infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində intensiv işlər görülməkdədir.

Nazirlər Kabineti yanında Operativ qərargahın elan etdiyi xüsusi rejim və tətbiq olunan sosial izolyasiya tədbirləri virusun ölkədə yayılma ehtimalının qarşısını almağa xidmət edir. Yəni hökumətin vaxtında atdığı uğurlu addımlar, Prezident İlham Əliyevin verdiyi müdrik qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparmaqdadır.

Bu gün pandemiya dövründə dünyanın mənzərəsinə nəzər yetirsək görərik ki, Azərbaycan yalnız regionda deyil, bütün dünyada koronavirus təhlükəsinə adekvat reaksiya verən, zamanında qabaqlayıcı tədbirlər görən azsaylı dövlətlərdən biridir. Məhz buna görə də digər dünya dövlətləri ilə müqayisədə Azərbaycanda koronavirusun yayılma tempi azdır. Bununla belə dövlət əhalinin sağlamlığını qorumaq, koronavirusun yayılmasının qarşısını almaq üçün səylərini davam etdirməkdədir.

Aprelin 20-dək ölkəmizdə xüsusi karantin rejimi elan edilib ki, məqsəd əhalinin evdə qalmasını təmin etmək, sosial izolyasiya tədbirlərini genişləndirmək, bununla da virusun yayılmasının qarşısını almaqdır.

Pandemiyanın fəsadlarından az itki ilə çıxmaq üçün dövlət əlindən gələni əsirgəmir. Prezident İlham Əliyev də xalqa müraciətində bildirmişdir ki, məhz qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Bu, hər kəs üçün dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdür: insan həyatını, sağlamlığını qorumaq və xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməmək. Bu günə qədər görülmüş bütün tədbirlər isə öz səmərəsini verir. Görülən işlərə nəzər yetirsək, çox maraqlı duruma şahidlik etmiş olarıq.

İlk olaraq xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük irəliləyişlər əldə edildi. Ölkə üzrə 22 tibb müəssisəsi karantin üçün ayrılıb. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilib. Karantin üçün ən məqbul yerlər müəyyən edilib. Karantin rejimində olan ən çox insan məkanı Atletlər kəndidir. Orada hazırda təqribən 1300 insan yerləşdirilib. Karantində olan vətəndaşlar eyni zamanda Bakı şəhərində və bölgələrdə 4-5 ulduzlu hotellərdə, istirahət zonalarında, bəzi dövlət qurumlarının istirahət mərkəzlərində yerləşdirilir.

Bütün regionlarda sərhəd-keçid məntəqələrində yüksək səviyyəli karantin yerləri yaradılıb. Oradakı şərait də qənaətbəxşdir. Testlərlə bağlı xüsusi logistika proqramı hazırlanıb. Təcili yardım briqadaları daim hazır vəziyyətdə olur.

Bu gün ölkədə 3000-dən çox müayinə aparılıb və bununla da 57 mindən çox test icra olunub. Hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar.

Dövlət başçısının sərəncamı ilə hər birində 200 çarpayı olan modul tipli 6 xəstəxananın quraşdırılmasına da start verilib. Bu məqsədlə dövlət büdcəsindən 14,8 milyon manat vəsait ayrılıb.

Müxtəlif qeyri-hökumət təşkilatları, dövlət qurumları həssas təbəqədən olan ailələr üçün sosial izolyasiya tədbirləri haqqında məlumatlandırma aksiyasını keçirir. Həmçinin Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlarla tətbiq olunan preventiv və müdafiə xarakterli sosial izolyasiya tədbirlərinin mahiyyəti və yerinə yetirilməsinin vacibliyi insanlara izah olunur.

Prezidentin sərəncamı ilə yaşı 65-dən yuxarı olan 176 məhbusun azadlığa buraxılması da həyata keçirilən məqsədyönlü tədbirlərin tərkib hissəsidir.

Əlavə edək ki, koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlayıblar.

Ancaq pandemiyanın qarşısının alınması ilə bağlı ciddi tədbirlər görən Prezident İlham Əliyev ölkəmizdə maska qıtlığının aradan qaldırılması ilə bağlı məsələni də həll etdi. Dövlət başçısının tapşırığına əsasən aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail oldu və Sumqayıt Kimya Sənaye Parkının ərazisində yeni tibbi avadanlıqlar və maska istehsal edən müəssisə açıldı.

Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir daha ölkə əhalisinə müraciət edərək pandemiyadan az itkilərlə çıxmaq üçün karantin rejiminə əməl etməyə çağırdı.

Dövlət başçısı bəyan etdi ki, vətəndaşlar indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq nizam-intizam nümayiş etdirməlidirlər. Belə olarsa, Azərbaycan pandemiyaya qalib gələ biləcək: "Operativ tədbirlər nəticəsində imkan vermədik ki, bu bəla ölkədə geniş vüsət alsın. Ancaq bizim gələcək uğurumuz bundan sonra böyük dərəcədə insanların hərəkətlərindən asılı olacaq. Dövlət nə mümkünsə, onu edib. Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlər qüvvədədir. İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam göstərməliyik. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik".

Bir sözlə, Azərbaycanda pandemiyanın qarşısının alınmasına əsaslanan yanaşmalar Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğunlaşdırılıb, dövlət başçısının göstərişlərinə uyğun olaraq təxirəsalınmaz tədbirlər davam etdirilir, preventiv və effektiv tibbi xidmətlərin təşkili işi gücləndirilməkdədir.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Qazaxın sərhəd kəndlərinin sakinlərinə bu çətin günlərdə diqqət və qayğı göstərilir



Dünyada tüğyan edən koronavirus (COVID-19) infeksiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması və insanların sağlamlığının qorunması ilə bağlı dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Xüsusilə Prezident İlham Əliyevin pandemiyaya qarşı mübarizə məqsədilə verdiyi qərarlar vətəndaşlarımız tərəfindən böyük razılıqla qarşılanır və bu, ölkə başçısının xalqımıza qayğısının bariz nümunəsi kimi qiymətləndirilir. Onun "Biz birlikdə güclüyük!" çağırışı isə bu gün hər bir Azərbaycan vətəndaşı üçün həyat devizinə çevrilmişdir.

Respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da bu çağırışa həvəslə qoşulan imkanlı şəxslər xeyriyyə aksiyasına başlamışlar. Birliyi, həmrəyliyi, ölkə vətəndaşına sevgini, qayğını özündə əks etdirən bu kimi aksiyalarda rayonda fəaliyyət göstərən bütün şirkətlər böyük həvəslə iştirak etməyi özlərinin vətəndaşlıq borcu hesab edirlər.

Aksiyanın mərhələli şəkildə davam etdirilməsi üçün Qazax Rayon İcra Hakimiyyətində işçi qrupu yaradılmışdır. Aksiya çərçivəsində ilk tədbir daim atəş altında olan sərhəd kəndlərində həyata keçirilmişdir. "Carçıoğlu GROUP" MMC aksiyaya qoşularaq Quşçu Ayrım, Məzəm, Fərəhli, Cəfərli və Bala Cəfərli kəndlərində yaşayan 516 ailəyə, o cümlədən 286 şəhid ailəsinə ərzaq yardımı etmişdir. Yardım paylanarkən Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sakinlərlə görüşmüşdür. Görüş zamanı ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı görülən işlər barədə ətraflı məlumat vermişdir. Rayon rəhbəri qeyd etmişdir ki, dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın azərbaycanlıların çətin anlarda bir-birilərinə qayğı və həssaslıqla yanaşmasına dair çağırışlarına səs verən dövlət məmurları, iş adamları həmrəylik nümayiş etdirirlər. Elə bugünkü xeyriyyə aksiyası da məhz xalqa, sadə vətəndaşlara olan qayğını özündə əks etdirən bir təşəbbüsdür. İstər dövlətimiz, istərsə də iş adamları tərəfindən vətəndaşlarımıza göstərilən qayğı və dəstək bir daha onu göstərir ki, Azərbaycanda hər zaman birlik, həmrəylik olub və bundan sonra da olacaqdır.

Sərhəd kəndlərinin sakinlərinə ürək sözlərini çatdıran rayon rəhbəri onları koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə ciddi əməl etməyə çağırmışdır.

Quşçu Ayrım kəndinin sakini Misir Dünyamalıyev, Məzəm kəndinin sakinləri Məmməd Əliyev, Nəriman Məmmədov, Süleyman Süleymanov, şəhid anası Tamella Süleymanova, Bala Cəfərli kəndinin sakini Ceyhun Rəhimov, Qarabağ qazisi Kamil Musavi və başqaları çıxış edərək sərhəddə yaşayan insanlara, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər. Onları bu ağır dövrdə ərzaqla təmin edən "Carçıoğlu GROUP" MMC-nin rəhbərliyinə təşəkkür etmişlər. Diqqətə çatdırmışlar ki, ölkə rəhbərinin "Biz birlikdə güclüyük!" çağırışına səs verən iş adamlarının, sahibkarların xalqın yanında olmasını, dövlətə sadiqlik nümayiş etdirməsini yüksək qiymətləndirirlər.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Dövlət sahibkarları yalnız buraxmayacaq

**Azərbaycan dövləti əhalinin sağlamlığını qorumaq üçün lazım olan bütün tədbirləri görür. Dövlət başçısının təşəbbüsü ilə Bakıda 575 çarpayılıq "Yeni klinika" tibb müəssisəsi vaxtından əvvəl istifadəyə verildi. Bununla yanaşı, mövcud tibb müəssisələri koronavirusla mübarizə üçün tələb olunan avadanlıqlarla təmin edildi. Görülən tədbirlərin əsas məqsədi əhalinin sağlamlığını qorumaqdır.**

Koronavirus pandemiyası sağlamlıq tədbirlərinin görülməsi ilə məhdudlaşan bəla deyil. Bu, həm də dünyada dərin sosial-iqtisadi fəsadlara yol açan bir xəstəlikdir. Müasir dünyanın qloballaşan bir dövründə xəstəlik sürətlə yayılaraq iqtisadi inkişafı iflic vəziyyətə gətiribdir. Dünyanın aparıcı maliyyə qurumları bildirirlər ki, bu pandemiya nəticəsində yarana biləcək böhran 2008-2009-cu illərdə baş verən böhrandan daha ağır olacaqdır.

Ən qəribəsi isə odur ki, yeni böhrandan dünya dövlətləri birləşərək çıxmaq istəmir. Hər bir ölkə fərdi qaydada öz maraqlarına uyğun siyasət aparır. Hətta, birləşmiş Avropanın da bu mərhələdə parçalanmış şəkildə siyasət yürütdüyünü görürük. Bu qitədə olan dövlətlər çalışırlar ki, həmin böhrandan daha az ziyanla çıxsınlar. Hədəf isə böhrandan sonrakı dövrdə iqtisadi üstünlüyü saxlamaqla siyasi sahədə söz sahibinə çevrilməkdir.

Dövlətimiz ölkə iqtisadiyyatını böhrandan qorumaq üçün vaxtında qəti addımlar atdı. Prezident İlham Əliyev pandemiyanın iqtisadi və sosial fəsadlarını minimuma endirmək məqsədilə Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayırdı. Bununla yanaşı, dövlət başçısının qərarı ilə dörd qrup yaradıldı. Həmin işçi qruplarının əsas vəzifəsi məşğulluq məsələlərini təhlil edib ölkə rəhbərinə məlumat verməkdir. Bu fakt onu göstərir ki, həmişə olduğu kimi, dövlətin siyasətində Azərbaycan vətəndaşının mənafeyi öndə durur. Eyni zamanda bu qurumların işi iqtisadi sabitliyi qorumaq, iqtisadi inkişafı təmin etmək, makroiqtisadi sabitliyi və maliyyə vəziyyətini təhlil edərək tədbirlər görülməsi üçün hökumətə təkliflər verməkdir.

Azərbaycan iqtisadiyyatı liberal əsaslar üzərində qurulub. Buna görə də qeyri-neft sektorunda məhsul istehsalının 80 faizindən çoxu sahibkarlar tərəfindən istehsal olunur. Dövlət daim sahibkarlığın inkişafına qayğı göstərir. Bu çətin anda da dövlət sahibkarlara arxa çıxır, onlara hər bir maddi və mənəvi kömək göstərir.

Prezident İlham Əliyev dövlət tərəfindən sahibkarlara lazım olan dəstəyin göstərilməsinin vacib olduğunu bildirərək demişdir: "Biz ilk növbədə koronavirusdan ən çox əziyyət çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərini diqqət mərkəzinə aldıq. Biz ilk növbədə, bu sahibkarlıq subyektlərində işləyən insanların maliyyə vəziyyətini nəzərə almalıyıq... Ancaq, eyni zamanda, adi məsələdir, bir çox sahələr və 40 mindən çox sahibkarlıq subyekti, indi demək olar ki, fəaliyyət göstərmir, yaxud da, məhdud çərçivədə fəaliyyət göstərir. Dövlət onlara kömək göstərməlidir. Ona görə göstəriş verilmişdir ki, həmin bu sahibkarlıq subyektlərində muzdla işləyən insanların sosial təminatı, eyni zamanda, fərdi sahibkarların fəaliyyəti nəzərə alınsın. Onların da sayı təqribən 300 minə yaxındır".

Dövlət iqtisadi inkişafın qorunması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ayrılan vəsaitin həcmini 1,5 milyard manat artıraraq bu məbləği 2,5 milyarda çatdırıb. Prezident tərəfindən həmin vəsaitin artırılması böhrandan daha az itki ilə çıxmağa, iqtisadi inkişafı və sahibkarlığı qorumağa, əhalinin sosial müdafiəsini daha da gücləndirməyə imkan yaradacaqdır.

*Rüstəm KAMAL, "Azərbaycan"*

# Biz birlikdə güclüyük!

## Məcburi köçkünlər də karantin qanunlarını təqdir edir

**Möhtərəm Prezident cənab İlham Əliyev və əzizimiz Birinci vitse-prezident Mehriban xanım Əliyeva!**

Bu məktubu Sizə Abşeron rayonunda müvəqqəti məskunlaşmış kəlbəcərli məcburi köçkünlər adından ünvanlayırıq.

Hər zaman insanların sevincini sevinciniz, kədər-qəmini özünüzünkü bilmisiniz. Bunu xalqımız heç vaxt unutmayacaq. Anaların, bacıların, onların övladlarının hər birinə diqqət və qayğı göstərirsiniz. Bizim hər birimiz də buna cavab olaraq qəlbimizdə sizlərə və ailənizə sevgi bəsləyirik.

Hörmətli Prezidentimizin rəhbərliyi ilə koronavirus pandemiyasına qarşı aparılan mübarizədə dövlətimizin bütün idarə-müəssisələri, eləcə də ictimai təşkilatları səfərbər olunub. Sosial müdafiəyə ehtiyacı olan biz məcburi köçkünlərin də problemlərini unutmadınız. Karantin rejimi ilə əlaqədar müəllim və şagirdlər də evdə qalmağa məcbur oldu. Lakin onların təhsillərini evdə davam etdirmələri üçün hökumət Təhsil Nazirliyinə bir sıra tapşırıq, Siz isə tövsiyələrinizi verdiniz. Bu gün bütünlüklə məktəblilərimiz "evdə qal, təhsil al" kampaniyasında öz təhsillərini davam etdirir. Bu, müəllimlər tərəfindən videodərslər şəklində həyata keçirilir.

"Biz birlikdə güclüyük!"

Hörmətli Prezidentimiz, Sizin söylədiyiniz bu fikir ictimaiyyət arasında bir möhtəşəm çağırış-şüara çevrilib.

Yaşı 65-dən yuxarı, tənha və kimsəsizlərə bu karantin dövründə evdə xidmət göstərilməsi də əhali tərəfindən birmənalı şəkildə alqışlanır. Belə diqqət və qayğı eyni zamanda biz məcburi köçkünlərə də göstərilir.

İnternet, sosial şəbəkələrin az qala hüdudsuz görünən imkanlarından bəhrələnib bəşəri ideyaları - sülhü, dostluğu, həmrəyliyimizi, humanizmi, birliyimizi, gücümüzü göstərmək üçün dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizədə sizinlə olmağı özümüzə borc bilirik. Çünki Siz ölkəmizin hər bir vətəndaşının Prezidenti olduğunuzu bu ağır günlərdə də təsdiqləyirsiniz! Biz də Sizin xalqımızla bir olmağınızı, sağlamlığımızı hər şeydən üstün tutmağınızı duyur, görür və siyasətinizi dəstəkləyirik! Biz də sizinlə güclüyük, cənab Prezident! Siz xalqa, xalq da Sizə arxalanır! Bu birliyimizlə biz pandemiya ilə mübarizədən qalib çıxacağıq!

Sağlam və xoşbəxt gələcəyə doğru, işıqlı günlərimizə aparan yolu sizinlə - cənab Prezidentimiz İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə birgə addımlayaq! Biz birlikdə güclüyük!

***Gültəkin CƏLİLOVA,***
***Kəlbəcər rayonunun Bakı şəhərində yerləşən 21 nömrəli tam orta məktəbinin müəllimi***

## Sosial yardıma ehtiyacı olan mədəniyyət işçilərinə qayğı

Dünyanı lərzəyə salan koronavirus pandemiyasına qarşı ölkəmizdə aparılan qabaqlayıcı tədbirlər artıq öz nəticəsini verir. İndi bu dəhşətli bəladan qurtulmaq üçün bütün ölkə əhalisi səfərbər olunmuşdur.





Belə bir dövrdə Gəncə Regional Mədəniyyət İdarəsinin kollektivi də üzərinə düşən vəzifəni dərk edir və imkan daxilində aparılan məqsədyönlü tədbirlərdə fəallıq göstərir.

Qeyd edək ki, Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Gəncə və Naftalan şəhərlərindəki, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayonlarındakı mədəniyyət müəssisələri də koronavirusa qarşı qabaqlayıcı tədbirlərdə əllərindən gələni əsirgəmirlər. Onlar belə bir ağır dövrdə "Siz hər zaman bizimləsiniz" adlı aksiya keçirərək yaşı 65-dən yuxarı olan, vaxtilə mədəniyyət sahəsində çalışmış, sosial yardıma ehtiyacı olan 100 nəfərdən artıq ahıl və tənha insana baş çəkərək ərzaq məhsulları ilə dolu bağlamalar çatdırmışlar. Belə ziyarətlər zamanı idarənin əməkdaşları ölkədə koronavirus infeksiyasının Azərbaycanda təsirinin azaldılması istiqamətində Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb etdiyi qaydaların yerinə yetirilməsinin diqqət mərkəzində saxlanması barədə təbliğat xarakterli söhbətlər də aparmışlar.

Qeyd edək ki, Gəncə Regional Mədəniyyət İdarəsinin kollektivi işini təkcə yardımlar etməklə bitmiş hesab etmir. Məlum olduğu kimi, Operativ Qərargahın qərarı ilə ali və orta təhsil müəssisələri, o cümlədən şəhər və rayonların uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində, həmçinin muzey mərkəzlərində, mərkəzi kitabxana sistemində, eləcə də Gəncədəki Heydər Əliyev Mərkəzində işlər dayandırılmışdır. Lakin adları çəkilən mədəniyyət müəssisələri bağlansa da, onlar fəaliyyətlərini onlayn rejimdə davam etdirirlər. Belə ki, uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində tədris prosesinin ləngiməməsi, şagirdlərin dərsdən geri qalmaması üçün distant məşğələlərə start verilmişdir. Bundan başqa, Gəncə və ətraf rayonlardakı Heydər Əliyev mərkəzlərinə, mədəniyyət ocaqlarına, eləcə də muzeylərə virtual səyahətlər və ekskursiyalar da təşkil olunur.

Mədəniyyət Nazirliyinin "Evdə qal, evdə yarat" çağırışına Gəncə Regional Mədəniyyət İdarəsini əhatə edən şəhər və rayon mərkəzi kitabxana sistemləri də qoşularaq "Evdə qal, mütaliədən qalma" adlı onlayn xidmətlər göstərirlər. Belə ki, indi layihə çərçivəsində tarixi bayramlarla, əlamətdar günlərlə, eləcə də mədəniyyət, incəsənət işçilərinin, şair və yazıçıların yubileyləri ilə bağlı videoçarxlar nümayiş etdirilir.

Gəncə Dövlət Dram və Dövlət Kukla teatrları belə bir dövrdə fəaliyyətlərini bir qədər də artırmışlar. Onlar Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalında maraqlı tamaşa ilə çıxış etmişlər. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası solistlərinin çıxışlarının canlı yayımlanması üçün "Youtube" kanalı yaradılmışdır.

Onu da qeyd edək ki, Gəncə Regional Mədəniyyət İdarəsinin kollektivi Azərbaycan Prezidenti İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna 5 min manat vəsait köçürmüşdür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## 20 mindən çox tələbəni sevindirən qərar

### Onların illik təhsil haqqı dövlət tərəfindən ödəniləcək

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə Prezident İlham Əliyevin "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 19 mart tarixli sərəncamına dair vəzifələr uğurla icra olunur. Müvafiq istiqamətdə həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də Nazirlər Kabinetinin "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərarıdır.

Ayrı-ayrı təhsil ocaqlarında müxtəlif ixtisaslar üzrə biliklərə yiyələnən bu günün tələbələri sabahın mütəxəssisləridir. Onların Azərbaycan üçün faydalı vətəndaşlar, seçdikləri peşələrin peşəkarı kimi yetişmələri naminə dövlət tərəfindən lazımi tədbirlər həyata keçirilir. Azərbaycan dövləti hər bir vətəndaşının qayğısına qalır.

Qeyd olunan qərarda ünvanlı dövlət sosial yardımı alan ailələrin tələbə övladlarının, valideynləri I və II dərəcəli əlil və ya işsiz kimi qeydiyyata alınan, valideynləri yaşa görə əmək pensiyası və ya yaşa görə sosial müavinət alan ödənişli əsaslarla əyani oxuyan tələbələrin birillik təhsil haqqının dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulur. Orta ixtisas və peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan həmin həssas kateqoriyaya aid tələbələrin isə illik təhsil haqqının 50 faizi miqdarında güzəşt ediləcək. Bütün bunlar əhalinin sosial qruplarının dövlətin nəzarətində olduğunu, heç kəsin diqqətdən kənarda qalmayacağını bir daha sübut edir.

Təhsil Nazirliyindən verilən məlumatda Nazirlər Kabinetinin "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərarının 20 mindən artıq tələbəni əhatə edəcəyi diqqətə çatdırılıb.

Nazirlikdən qərarın icrası üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaitinin ayrıldığı bildirilib.

Qərar yalnız ali təhsil müəssisələrində təhsil alanları deyil, orta ixtisas və peşə təhsili üzrə əyani oxuyan tələbələri də əhatə edir. Bu, təkrar ali və orta ixtisas təhsili alan tələbələrə şamil edilmir.

Təhsil Nazirliyindən verilən məlumatda qaydalara əsasən bütövlükdə həssas qrupdan olan tələbələr üçün tam olaraq illik təhsil haqqı xərcinin dövlət tərəfindən ödəniləcəyi açıqlanıb. Tələbənin təhsil haqqı xərcinin 50 faizi 2019-2020-ci ilin yaz semestri üzrə, 50 faizi isə 2020-2021-ci tədris ilinin payız semestri üzrə elektron qaydada ödəniləcək. Bu qrupa aid edilən tələbələr oxuduqları təhsil müəssisəsinə müraciət edərək müvafiq məlumatları təqdim etməlidirlər. Tələbələrin müraciətindən sonra təhsil müəssisələrindəki məsul şəxslər tərəfindən həmin məlumatlar "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə daxil ediləcək. Sonrakı mərhələdə tələbələrin statusu müəyyən olunacaq və təhsil müəssisələrinə tələbələrin təhsil haqlarının ödənişləri həyata keçiriləcək.

Göründüyü kimi, "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərar minlərlə gəncimizin və onların doğmalarının üzünü güldürəcək. Azərbaycan dövlətinin qayğısı sayəsində gənclərimiz təhsil xərcləri deyil, daha yaxşı oxumaq, seçdikləri ixtisasları dərindən öyrənmək barədə düşünəcəklər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## YAP könüllüləri ehtiyacı olan ailələrə yardımlar edirlər





**Ölkəmizdə qlobal problem olan koronavirusa qarşı dövlətimizin həyata keçirdiyi tədbirlərə ilk gündən qoşulan təşkilatlardan biri də Yeni Azərbaycan Partiyasıdır.**

Partiyanın sumqayıtlı könüllüləri şəhər ərazisində yaşayan əhalinin həssas təbəqəsinə aid olan ailələrə müntəzəm olaraq hər cür yardımlar edirlər. YAP könüllüləri bu insanlara məmnuniyyətlə dezinfeksiyaedici məhlullar, gigiyenik vasitələr, tibbi maskalar çatdırır, kommunal problemlərin həllini və sosial təminatla bağlı elektron (www.e-sosial.az) portalda qeydiyyata düşməyə köməklik göstərirlər.

Könüllülər aztəminatlı ailələrə YAP tərəfindən növbəti dəfə hazırlanmış zəruri ərzaqları çatdırır, onların gündəlik tələbatla bağlı problemlərinin həllində yardımçı olurlar. Bu günədək YAP könüllüləri yüzlərlə ailəyə yardım etmişlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Moskvada yaşayan azərbaycanlı iş adamları Şəmkirdə aztəminatlı ailələrə yardım etmişdir



**Azərbaycan Respublikası Prezidentinin "Biz birlikdə güclüyük!" çağırışına Rusiya Federasiyasının paytaxtı Moskvada yaşayan azərbaycanlı iş adamları da qoşulmuşlar. Adlarının çəkilməsini istəməyən həmyerlilərimiz bu günlərdə doğulub boya-başa çatdıqları Şəmkirin Çinarlı qəsəbəsində olmuş, sosial müdafiəyə ehtiyacı olan 150 ailəni və yaşı 65-dən yuxarı olan ahıl insanları ərzaq məhsulları ilə təmin etmişlər.**

Çinarlı qəsəbə icra nümayəndəliyi, qəsəbə bələdiyyəsi və "Lüks" marketin təşkilatçılığı ilə həyata keçirilən yardım kampaniyasında rayon könüllüləri fəallıqla iştirak edərək ərzaqları qəsəbə sakinlərinə çatdırmışlar. Hər ərzaq paketinə 25 kiloqram un, düyü, makaron, vermişel, qarabaşaq, şəkər tozu, qənd, çay, kərə və günəbaxan yağları, eləcə də duz və çörək daxil edilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***





## Dövlətin siyasətinin mərkəzində vətəndaşın dayandığı bu günlərdə də dönə-dönə təsdiqlənir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev "Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 14 aprel 2020-ci il tarixli sərəncam imzalayıb. Bu, xüsusi karantin rejimi dövründə vətəndaşlara sosial xidmətlərin səmərəli təşkilində fəal iştirak edən şəxslərin, ümumiyyətlə, sosial xidmət işçilərinin əməyinə verilən yüksək dəyərin və onlara xüsusi qayğının ifadəsidir.

Sənəddə koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə elan edilmiş xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin rayon (şəhər) şöbələrində və tabeliyindəki sosial xidmət müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının bir misli miqdarında müddətli əlavə müəyyən edilməsi nəzərdə tutulur.

Sərəncam ümumilikdə 2 min sosial xidmət işçisini əhatə edir. Bunlar DSMF-nin rayon (şəhər) şöbələrindəki 1400 və fondun tabeliyindəki sosial xidmət müəssisələrində çalışan 600 nəfərdir. Bu günlərdə imzalanan daha bir sənəd də Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin davamlı olduğunu əyani sübut edir. COVID-19-la bağlı karantin vəziyyətində yaşadığımız vaxtda da Azərbaycan dövləti əhalinin ehtiyaclarının ödənilməsini diqqət mərkəzində saxlayır, bununla bağlı zəruri tədbirlərini davam etdirir.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il martın 19-da "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncam imzalamışdı. Hazırda bu sərəncamdan irəli gələn məsələlərin həlli ilə bağlı tədbirlər həyata keçirilir. Belə ki, Nazirlər Kabineti "Əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcminin tənzimlənməsi ilə bağlı tədbirlər haqqında" qərar verib.

Bu sənədə əsasən əhali üzrə elektrik enerjisinin 7 qəpik/kilovat-saat tarifi tətbiq olunan aylıq istehlak həcmi 2020-ci ilin aprel ayından etibarən iki ay müddətində 100 kilovat-saat artırılaraq 400 kilovat-saata çatdırılıb.

İki aylıq müddət aprel və may aylarını əhatə edir. Apreldə mart ayının sərfiyyatları abonentlərə bildiriş olaraq verildiyi üçün may ayında onlar aprelin sərfiyyatı haqqında məlumatlandırılacaqlar. Həmin vaxt 400 kilovat/saat nəzərə alınacaq. Həmçinin iyun ayında mayla bağlı veriləcək bildirişlərdə də 400 kilovat/saatlıq limit üzrə hesablama aparılacaq.

Qeyd edək ki, 400 kilovat/saatlıq limitlə bağlı artım yalnız əhali qrupu abonentlərinə şamil olunur. Bu da xüsusi karantin rejiminə uyğun olaraq əhalinin evdə qalması və elektrik enerjisindən daha çox istifadə etməsi ilə bağlıdır.

Bu, ilk növbədə, dövlətin insanlara, onların rahatlığına və ailə büdcəsinə qayğısının daha bir təzahürüdür. Azərbaycan dövləti həmişə olduğu kimi, yenə də vətəndaşının yanındadır!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Modul tipli xəstəxanaların tikintisinə başlanılıb



Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq koronavirus pandemiyasına qarşı mübarizənin daha da gücləndirilməsi məqsədilə hər biri 200 yerlik olan 6 modul tipli xəstəxananın tikintisi nəzərdə tutulub.

Xəstəxanalardan biri Sumqayıt şəhərində, digəri isə Abşeron rayonunda quraşdırılır. Onların bir ay müddətində istifadəyə verilməsi gözlənilir.

Sumqayıtda fəaliyyət göstərəcək modul tipli xəstəxana 3 bölmədən ibarət olacaq. Binanın qurulması üçün beton örtüyün tökülməsinə başlanılıb. Artıq bölmələrdən birinin beton örtüyü döşənib. Eləcə də həmin əraziyə su, təbii qaz və elektrik enerjisi xətti çəkilib. Xəstəxana 100 palatadan ibarət olacaq. Hər palatada iki yataq nəzərdə tutulub. Ümumilikdə bu tibb müəssisəsində 200 xəstəni yerləşdirmək mümkün olacaq. Palataların hər biri süni tənəffüs aparatı və zəruri avadanlıqla təchiz ediləcək.

Eyni zamanda Abşeron rayonunun Saray qəsəbəsində də modul tipli xəstəxananın inşasına başlanılıb. Hazırda orada torpaq səthinin düzləşdirilməsi prosesi həyata keçirilir.

Saray qəsəbə xəstəxanasının həyətində quraşdırılan modul tipli tibb müəssisəsi də 200 çarpayılıq olacaq. Bu xəstəxananın da müasir avadanlıqla təchiz edilməklə bir aya istifadəyə verilməsi nəzərdə tutulur.

***A.ƏLİYEV,***
***"Azərbaycan"***

## Kiçikyaşlı tamaşaçılar üçün müsabiqə

Dünyanı çənginə alan koronavirus pandemiyasının respublikamızın ərazisində daha geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirilən sosial təcrid layihələrinə özünəməxsus töhfələr verməyə çalışan Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı növbəti aksiya ilə balacaları yenidən öz ətrafına toplayacaq. Belə ki, teatrın nəzdindəki "Oyuq" teatr-studiyası Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi və "kulis.az" saytının təşkilatçılığı ilə "Sənə nağıl danışım" adlı müsabiqəyə start verib.

Teatrın mətbuat xidmətindən verilən məlumatda qeyd edilir ki, uşaqların evdəki vaxtlarını səmərəli keçirmələri, yaradıcılıq potensiallarını sərbəst nümayiş etdirmələri və onların ümumilikdə epidemiya, ondan qorunmaq üsulları ilə bağlı bilgilərini müəyyənləşdirmək məqsədilə təşkil olunan müsabiqə aprelin 10-dan 30-dək davam edəcək. 7-13 yaş arası uşaqlar arasında keçirilməsi nəzərdə tutulan müsabiqəyə təqdim olunacaq nağılları yazıçı və jurnalistlərdən ibarət 5 nəfərlik münsiflər heyəti dəyərləndirəcək.

Onu da qeyd edək ki, ümumilikdə 10 nağıl müəllifi seçiləcək ki, onlardan da ilk iki yerin sahibini münsiflər heyəti, 3-cü qalibi isə onlayn (nağıllar "kulis.az" saytında yerləşdiriləcək) səsvermənin nəticəsi təyin edəcək. Qalan 7 nəfər balaca nağılçıya isə müsabiqədə iştirak diplomları təqdim olunacaq.

İlk üçlükdə yer alan nağıllar birləşdirilməklə onların əsasında tamaşa da hazırlanacaq. Belə ki, "Oyuq" teatr-studiyasının həvəskar aktyorları və teatrın peşəkar aktyor truppasının iştirakı ilə ərsəyə gələcək tamaşa karantin müddəti bitdikdən sonra səhnələşdirilməklə teatr mövsümünün sonunadək tamaşaçıların ixtiyarına veriləcək. Premyera günü qaliblər mükafatlandırılacaqlar.



***"Azərbaycan"***

# Qabaqlayıcı tədbirlər səmərə verir

## Pandemiya ilə mübarizə həkimlərin peşə, ölkə əhalisinin isə vətəndaşlıq borcudur

Koronavirusa qarşı xüsusi müalicə vasitəsi və ya vaksinin (peyvəndin) hələ ki, olmaması heç də faciə hesab olunmamalıdır. Mütəxəssislərin fikrincə, bu virusa yoluxmuş əksər insanlar özləri sağalır. Bir şərtlə ki, onlar vaxt itirmədən həkimə müraciət etməlidirlər. Bununla yanaşı, koronavirus yoluxmasının qarşısını almağa kömək etmək üçün ümumi soyuqdan qorunmalı, qabaqlayıcı tədbirlərə riayət olunmalıdır.



Bir çox hallarda COVID-19-a yoluxmuş insanlarda xəstəlik simptomları olmur və onlar sadəcə daşıyıcı rolunu oynayırlar. Ona görə də hər bir insanın sanitar, dezinfeksiya qaydalarına riayət etməsi olduqca vacibdir.

### Bolluca istirahət, çoxlu maye qəbul etməli

Bakı Dəmiryol Xəstəxanasının Ümumi cərrahiyyə şöbəsinin müdiri Ramil Nadirovla söhbətimiz də günün ən aktual mövzusu və dünyanın bir nömrəli problemi olan koronavirusla bağlıdır. Həkim virusun insan orqanizminə hansı şəraitdə daxil olması, orada törətdikləri, xüsusən ağciyərləri necə sıradan çıxarması barədə söz açaraq öncə bildirdi ki, koronavirus yoluxması zamanı və simptomları yüngülləşdirmək üçün soyuqdəyməyə qarşı edilən müalicəni unutmaq olmaz. Yəni yaxşı istirahət, çoxlu maye qəbul etməli, dehidrasiyadan yayınmalıyıq.

Bu gün tüğyan edən koronavirus bir sıra digər xəstəliklərə oxşadığı üçün bəzən insanlar onu dəyişik salırlar. Buna görə də onların qarşılıqlı təhlilini aparmaq olduqca vacibdir: "Bununla bağlı bəzi məsələləri diqqətə çatdırmaq istərdim. Hazırda koronavirus pandemiyası dünyanı əsarət altına alıb. Bunun zərərlərini yaşamayan dünya ölkələri demək olar ki, azdır. Pandemiya bir və bir neçə ölkəni hansısa bir infeksion xəstəliyin bürüməsi anlamını verir. İnfeksion xəstəliklərin yaranması üçün isə müəyyən səbəblər olur. Onlardan biri törədicinin orqanizmə giriş qapısıdır. Bu göz, burun və ağız boşluğumuz. Törədicinin virulentliyi də lazımdır. Yəni virulentlik dedikdə, bakteriya və ya virusların xəstəliktörətmə qabiliyyəti nəzərdə tutulur. Virulentlik qabiliyyəti nə qədər yüksəkdirsə, xəstəliktörətmə ehtimalı da bir o qədər artıq olur. Düşmüş bakteriya və ya virusa qarşı orqanizmin immun sisteminin cavabından asılı olaraq, xəstəliyin yaranma dərəcəsi də müxtəlifdir: bir insan xəstəliyi ağır, digəri isə daha yüngül keçirə bilər. Bu, orqanizmin immun qabiliyyətinin - immun sisteminin gücü ilə əlaqəlidir".

### Viruslar bir gen daşıyıcılarıdır

Həkim qeyd edir ki, viruslar canlı orqanizm deyil. Onlar bir gen daşıyıcılarıdır. Yəni bunlar natamam canlılar kimi nəzərdə tutulur. Bu gen daşıyıcıları da RNT tərkibli viruslar ailəsindəndir. Həmin virusların orqanizmə düşməsi mümkün olmazsa, onda o, inkişaf edə bilməz. Hüceyrə daxilinə keçməsi üçün də xüsusi reseptorlar lazımdır. Çünki onlar həmin reseptorlar vasitəsilə hüceyrə daxilinə keçirlər. Virus hüceyrə daxilinə keçdikdən sonra artıq xəstəliyin əlamətləri özünü göstərməyə başlayır. Buna qədər o, xəstəlik törədə bilməz. Bəs virus hüceyrə daxilinə keçdikdən sonra nələr baş verir? Bunu həkimin dilindən eşidək: "Bu zaman virus öz genetik kodunu hüceyrənin daxilinə ötürür. Bilirik ki, hüceyrə daxilində daim zülallar sintez olunur. Bu zaman həmin kod müxtəlif sintez olunmuş zülalların müxtəlif dəyişilmiş variantlarını əmələ gətirmiş olur. Bundan sonra orqanizmdə hazır olan zülallar yad toxumalar kimi qəbul edilir. Onlar hüceyrə membranının kənarına çıxarılır və təqdim olunur immun sistemə. Bu zaman həmin prosesə qarşı orqanizmin daxilində olan killerlər var, hansı ki, onlar bizim immun sistemimizin kökünü təşkil edir, eyni zamanda, orqanizmimizi xarici təsirlərdən qoruyan vasitələrdir. Onlar həmin membranın üzərinə çıxarılmış zülalları məhv edirlər və bu proses hüceyrə membranının üzərində gedir. Beləliklə, hüceyrə membranı zədələnir və həmin hüceyrə də ölür. Bununla da iltihabi proses başlayır. "Evdə qal" çağırışı bu prosesi yaşamamaq üçündür. Bu, çox vacibdir".

### Orqanizmimizi qoruyan əsas immun sistemidir

Digər tərəfdən, risk faktorları olan amillərə də nəzər salmaq yerinə düşərdi. Bura, ilk növbədə, yaş, köklüklə yanaşı, şəkərli diabet, onkoloji, eləcə də hər hansı xroniki xəstəliklər daxildir: "Bayaq qeyd etdik ki, orqanizmimizi qoruyan əsasən immun sistemimizdir. Bu gün şəkərli diabet, yaxud hər hansı digər xroniki iltihabdan əziyyət çəkən insanların immun sistemi nə haldadır! Orqanizmimiz bir ahəng formasında çalışır. Bu ahəng pozulduqda orqanizmin müqaviməti qırılır, həmin xəstəlik qarşısında aciz qalır.

Bu gün risk faktorundan biri də artıq çəki hesab edilir. Köklükdən əziyyət çəkən insanların ağciyərlərinin yükünün hansı çəkidə olmasını təsəvvür etmək o qədər də çətin deyil. Belə xəstələrin ağciyərləri oksigenlə təmin olunmaqda həddən artıq əziyyət çəkir. Həmin insanlar hətta normal halda qısa məsafəni yüngülcə qaçarlarsa, onların təngnəfəs olması faktdır. Belə insanlarda, iraq olsun, ağciyərlərdə baş vermiş zədələnmə gələcəkdə xroniki çatışmazlığa gətirib çıxara bilər".

Bunları deməkdə həkimin məqsədi odur ki, insanların bu kimi problemləri varsa, özünü və evindəki xəstələrini, eləcə də qonşularını, yaxın-uzaq qohumlarını, istəklilərini düşünsün. "Evdə qal" kampaniyası ümumxalq hərəkatına çevrilməli, ona əməl etmək isə hər kəsin borcu olmalıdır. Bu, ilk növbədə, özümüzün, sonra isə ətrafımızdakıların sağlamlığı üçün zəruridir: "Nəhayət, çalışdığım səhiyyə müəssisəsinə gəlincə, qeyd edim ki, Bakı Dəmiryol Xəstəxanasının tibb personalı karantin rejimini nəzərə alaraq evdə laborator xidmətlərin, tibbi müayinələrin göstərilməsini vacib hesab edir. Eyni zamanda, təcili cərrahiyyə əməliyyatı zərurəti yaranarsa, xidmət başındayıq. Ölkəmizin vətəndaşlarına bolluca səbir, təmkin arzulayır və inanıram ki, biz birlikdə qalib olmağı, bu pandemiya üzərində qələbəni təsdiqləyəcəyik!"

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## Humanitar yardım pandemiyaya qarşı mübarizənin əsasıdır

Koronavirus pandemiyası dövründə təkcə insanlar deyil, dövlətlər də bir olmağa, birlikdə mübarizə aparmağa borcludurlar. Çünki ölkələr bir-birinə yardım etdikdə bu bəladan uzaqlaşmaq və yaxud onun qarşısını almaq mümkündür.

Bu günlərdə Çindən göndərilən humanitar yardım respublikamıza çatdırılıb. Əsasən Sumqayıt şəhərinə göndərilən yardıma xüsusi qoruyucu vasitələr daxildir.

Mienyen şəhərindən göndərilən tibbi ləvazimatlar Azərbaycan Hava Yollarının Karqo Terminalına çatıb. Tibbi ləvazimatlar dezinfeksiya olunduqdan sonra Sumqayıt şəhərinə gətirilib. 1 nömrəli şəhər xəstəxanasında humanitar yardım qəbul olunub. Tibbi ləvazimatlar şəhərdəki tibb müəssisələrinə paylanılacaq və koronavirusla mübarizədə istifadə ediləcək.

Humanitar yardımın qəbulu zamanı vurğulanıb ki, Çin ilə münasibətlər Azərbaycan üçün prioritet istiqamətdir və ölkə başçıları tərəfindən əsası qoyulmuş siyasi dialoq ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradıb. Dövlət başçılarının dostluq münasibətləri və qarşılıqlı etimadı ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının dərinləşməsinə böyük imkanlar açır.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Azərbaycanda sanitar-epidemioloji vəziyyət nəzarət altındadır

### Ölkədə həyata keçirilən qabaqlayıcı tədbirlər koronavirusun yayılmasını məhdudlaşdırır

**Qlobal pandemiya elan edilən koronavirus (COVID-19) dünya üzrə sürətlə yayılmaqda və artmaqda davam edir. Bütün ölkələrdə karantin rejimləri tətbiq olunub, xəstəliyin yayılmaması üçün ciddi tədbirlər görülür. Təəssüf ki, hələlik taclı bəlanın qarşısını almaq mümkün olmayıb və bu qeyri-adi halın nə qədər sürəcəyi sual altındadır.**

Son statistikaya əsasən, dünyada koronavirus infeksiyasına yoluxanların sayı 2 milyonu keçib. Hazırda 2 000 043 nəfərdə koronavirus infeksiyası aşkarlanıb. Onlardan 126 753 nəfər ölüb, 484 573 nəfər isə sağalıb.

Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Bu səbəbdən də dövlət infeksiyanın təsirlərindən az itki ilə çıxmaq üçün ciddi şəkildə mübarizə aparır. Hazırda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir.

### "Biz özümüzü bu günə qədər demək olar ki, çox böyük problemlərdən qoruya bildik"

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan və videokonfrans şəklində reallaşdırılan müşavirədəki çıxışında da bu məsələni vurğuladı: "Əlbəttə, bizim iqtisadi və sosial planlarımız yerindədir. Koronavirus planlarımıza müəyyən təsir etsə də, bizi əsas yolumuzdan döndərə bilməz. Əlbəttə ki, indi bizim bütün səylərimiz koronavirusla mübarizəyə yönəldilib. Bu da təbiidir".

Dövlət başçısı qeyd etdi ki, məhz bu məqsədlə onun sərəncamı ilə Baş Nazirin rəhbərliyi altında Operativ Qərargah yaradılıb: "Qərargah çox səmərəli işləyir, 24 saat çalışır. Demək olar ki, mən də 24 saat əlaqədəyəm. Gün ərzində bəlkə də 5-6 dəfə zəngləşirik, danışırıq. Deyə bilərəm ki, əgər vaxtında bu addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün biz daha da böyük problemlərlə üzləşə bilərdik. Biz özümüzü bu günə qədər demək olar ki, çox böyük problemlərdən qoruya bildik. Son iki günün dinamikası, yəni xəstələrin və sağalanların sayı arasındakı dinamika müəyyən nikbinliyə yol açır".

### Artıq 100 min işsiz şəxs üçün birdəfəlik ödəmələr edilib

İşsiz kimi qeydiyyata alınan şəxslər üçün aprelin 9-dan etibarən və gündəlik olaraq birdəfəlik ödəmə vəsaitlərinin bank və poçt filiallarına köçürülməsinə başlanıb və artıq 100 min işsiz şəxs üçün bu vəsaitin köçürülməsi həyata keçirilib.

Bu günə qədər işsizlərə verilən vəsaitin həcmi 19 milyon manat təşkil edib. Aprelin 14-ü üçün 25 min işsiz şəxsə ödəniş edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına əsasən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar olaraq aztəminatlı ailələrə və tənha yaşayan ahıl vətəndaşlara dəstək olmağa davam edir.

Bir neçə gündür ki, davam edən bu aksiya çərçivəsində Bakı və Gəncə şəhərləri, həmçinin Abşeron rayonu da daxil olmaqla respublikamızın əksər rayonlarında ümumilikdə 2 500-ə yaxın aztəminatlı ailəyə ərzaq məhsullarından ibarət sovqatlar paylanılıb.

### Karantin rejimini pozanlar məsuliyyətə cəlb edilir

Ötən 2 gündə xüsusi karantin rejimini pozduqlarına görə, 1 cinayət işi üzrə 3 nəfər barəsində həbs-qətimkan tədbiri seçilib, 26 nəfər inzibati qaydada həbs olunub, 7314 nəfərə isə inzibati cərimə tətbiq edilib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, həmin obyekt sahiblərinin hər biri inzibati cərimə edilib.

Sutka ərzində respublikanın şəhər və rayonlarında təşkil olunan xüsusi polis postlarından, o cümlədən həmin postlardan kənarda olan ara və köməkçi yollardan keçməyə cəhd göstərdiklərinə və karantin rejimini pozduqlarına görə, ümumilikdə 7314 nəfərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə tətbiq edilib, 26 şəxs isə inzibati qaydada həbs olunub, 1 cinayət işi üzrə 3 nəfər barəsində həbs-qətimkan tədbiri seçilib.

Eyni zamanda koronavirus infeksiyası ilə əlaqədar sosial şəbəkələrdə həqiqətə uyğun olmayan məlumatlar yaydığına görə 3 nəfər inzibati qaydada həbs, 3 nəfər isə cərimə edilmişdir.

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə, 14.04.2020-ci il saat 00:00-dan 15.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1249 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polis İdarəsindən verilən məlumata görə, ümumilikdə 01.04.2020-ci il tarixdən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 19936 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### Dünyada vəziyyət

ABŞ-da koronavirus infeksiyasına yoluxma nəticəsində ölənlərin sayı 26 mini keçib. Federal və yerli hakimiyyət orqanlarının məlumatları əsasında statistika aparan Cons Hopkins Universitetinin açıqlamasında bildirilir ki, ümumilikdə 613 886 amerikalı virusa yoluxub. Son bir sutka ərzində virusdan ölənlərin sayı 2407 nəfər artaraq 26 047-yə çatıb. Bu müddətdə 26 945 nəfər də virusun daşıyıcısına çevrilib. Ölkədə epidemiyanın yayıldığı gündən bu günədək ümumilikdə 38 820 nəfər sağalaraq evinə buraxılıb.

İspaniyada son sutkada yeni növ koronavirusdan daha 523 nəfər vəfat edib. Bununla da ölkədə koronavirusdan ölənlərin sayı 18 579 nəfərə çatıb.

Fransada da vəziyyət ürəkaçan deyil və COVID-19 diaqnozu qoyulmuş şəxslərin sayı 100 mini keçib. Bu günə qədər koronavirusa yoluxanların sayı 103 573 nəfərdir. Onlardan 15 729 nəfəri vəfat edib. Son sutka ərzində vəfat edənlərin sayı isə 762-dir.

Almaniyada son sutka ərzində yeni növ koronavirusa daha 2486 yoluxma qeydə alınıb, 285 nəfər vəfat edib. Almaniyada ümumilikdə bu virusa yoluxanların sayı 127 584, xəstəlikdən ölənlərin sayı isə 3254 nəfərə yüksəlib. Ölkədə 72 600 nəfər koronavirusdan sağalıb.

Misirdə koronavirusdan ölənlərin sayı 178, xəstələrin ümumi sayı isə 2350 nəfərə çatıb. Son bir sutkada 26 pasiyent tam müalicə olunaraq xəstəxanadan evə buraxılıb. İndiyədək ölkədəki 12 karantin xəstəxanasında 514 koronavirus xəstəsi tam sağalıb.

Qazaxıstanda koronavirusdan dünyasını dəyişənlərin sayı 15-ə çatıb. Bu ölkədə koronavirusa 1267 yoluxma halı aşkarlanıb.

Özbəkistanda isə daha 49 nəfərdə COVID-19 infeksiyası aşkarlanıb. Bununla da respublika üzrə yoluxanların ümumi sayı 1 214 olub. İndiyədək 4 nəfər vəfat edib.

Rusiyada son sutka ərzində 3 388 nəfər koronavirusa yoluxub və ölkədə COVID-19-a yoluxanların sayı 24 490 nəfərə çatıb. Son sutka ərzində 28 nəfərin öldüyü bildirilir.

Ümumilikdə Rusiyada koronavirusdan ölənlərin sayı 198 nəfərə çatıb, xəstəlikdən sağalanların sayı 1986 nəfərdir.

Ermənistanda yeni növ koronavirusa yoluxanların sayı 1111 nəfərə çatıb, ölənlərin sayı isə 17 nəfərdir.

### Rəsmi Vaşinqton ÜST-ün maliyyələşməsini dayandıracağını bildirir

ABŞ Prezidenti Donald Tramp açıqlama verib ki, rəsmi Vaşinqton Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) maliyyələşdirilməsini dayandırır: "Bu gün mən administrasiyaya tapşırdım ki, təşkilatın pis idarə edilməsinə və koronavirusla bağlı məlumatların gizlədilməsinə görə ÜST-ə maliyyə töhfələrini dayandırsınlar. Hər kəs nə baş verdiyini bilir. Amerikalı vergi ödəyiciləri ÜST büdcəsinə ildə 400-500 milyon dollar vəsait köçürüb. Misal üçün, Çin isə 40 milyon dollar ödəyib".

D.Tramp söyləyib ki, təşkilatın əsas sponsoru olaraq Birləşmiş Ştatlar ÜST-ün tam məsuliyyəti öz üzərinə götürməsi üçün israr etməlidir: "Ən təhlükəli qərarlardan biri ABŞ-ın Çin və digər ölkələrlə uçuşlara qoyduğu qadağanın tənqid edilməsi idi. Xoşbəxtlikdən mən onların tövsiyələrini eşitmədim və uçuşları dayandırdım, bununla da minlərlə insanın həyatı xilas oldu. ÜST-ün tövsiyələrinə əməl edib sərhədləri açıq qoyan digər ölkələrə, xüsusən də Avropaya baxın".

Onun sözlərinə görə, Vaşinqton ÜST-də islahatların aparılmasını tələb edir və digər ölkələrlə ABŞ-ın bu təşkilata verdiyi vəsaitdən necə istifadə olunacağını müzakirə etmək niyyətindədir: "Ciddi islahatları həyata keçirə biləcəyinə əmin olmaq üçün ÜST-lə işimizi davam etdirəcəyik. Göndərdiyimiz bütün yardımlar çox təsirli qruplarla müzakirə ediləcək və bunu digər ölkələrlə, səhiyyə sahəsindəki tərəfdaşlarla müzakirə edəcəyik".

Tramp qeyd edib ki, ÜST məlumatları vaxtında verməyib və həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmayıb.

BMT-nin Baş katibi Antoniu Quterreş isə ÜST-ün maliyyələşdirilməsinin dayandırılması haqqında ABŞ Prezidenti Donald Trampın dediklərinə münasibət bildirərkən deyib ki, hazırda sözügedən quruma və digər humanitar təşkilatlara ayrılan resursların dayandırılmasının heç zamanı deyil.

Quterreş qeyd edib ki, indi beynəlxalq ictimaiyyətin COVID-19 və onun fəsadlarına qarşı birlik və həmrəylik halında işləyə bilməsinin vaxtı çatıb.

### Karantin rejimində psixoloji problemlər yaşayan vətəndaşlarımıza dəstək

Ölkəmizdə mövcud karantin rejimində psixoloji problemlər yaşayan vətəndaşlarımıza dəstək olmaq məqsədi ilə bu il aprelin 8-dən etibarən Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xətti vasitəsilə nazirliyin psixoloqları tərəfindən təcili psixoloji yardımın göstərilməsi təşkil olunub. FHN-dən məlumat verilib ki, 24 saat fasiləsiz fəaliyyət göstərən telefon xəttində nazirliyin xüsusi hazırlıqlı 12 nəfər psixoloqu işləyir. Fəaliyyət göstərdiyi bir həftə ərzində psixoloji yardımla bağlı respublikanın müxtəlif regionlarından qaynar xəttə 350-yə qədər müraciət daxil olub. Müraciətlər əsasən COVID-19 infeksiyasına yoluxma qorxusu yaşayan, yaşlı valideynlərinə görə narahatlıq, gərginlik keçirən, təşviş içərisində olan insanlardan daxil olub. Müraciət edənlər içərisində iş həyatına alışmış və hazırda gündəlik rejimini düzgün, səmərəli bölüşdürməkdə çətinlik çəkən insanlar da az deyil.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Koronavirus aqrar sektorun fəaliyyətinə mənfi təsir etməyəcək

Planetar miqyasda 1,5 milyondan çox insanın virusa yoluxması, tətbiq edilən karantin qaydaları, insanlardan evdə oturmalarının tələb edilməsi və sərhədlərin qapanması, sərt qadağaların tətbiqi dünyanın aqrar sektorunda ciddi problemlər yaratmaqdadır və bu məsələlərin həlli yollarını tapmaq o qədər də asan deyil.



Amma maraqlısı odur ki, ölkəmizin kənd təsərrüfatı bu çətin günlərdə işini davam etdirir, yaz tarla işlərinin ahəngi pozulmur, ortaya çıxan çətinliklər isə dövlət tərəfindən operativ həll olunur.

Bu gün Azərbaycanın kəndlərindən şəhərlərə ərzaq məhsullarının nəqli bütün çətinliklərə rəğmən, fasiləsiz davam edir. Lakin bu zahiri ritmik hərəkətin arxasında dünyada təlaş doğuran və artıq indinin özündə, ya da yaxın gələcəkdə problemə çevrilə biləcək məqamlar aydın sezilir. Azərbaycanda bu sahədə sabitlik müşahidə olunsa da, etiraf etməliyik ki, hətta inkişaf etmiş ölkələrin ərzaq təhlükəsizliyində bir sıra mənfi meyillər açıq müşahidə olunmaqdadır. Artıq ABŞ, Almaniya, İtaliya kimi bir sıra inkişaf etmiş ölkələrin aqrar sektorunda işçi qüvvəsinin çatışmaması aktuallaşır. Yoluxmaqdan ehtiyatlanan mövsümi işçi qüvvəsinin bir qismi işə çıxmaqdan imtina edir. Hakimiyyət isə fermerləri daha yüksək təhlükəsizlik tədbirləri görməyə çağırır, problemin müəyyən həlli yollarını təklif edir.

Amma bu addımların nə qədər faydalı olacağı müəmmalıdır. Məsələn, koronavirusun geniş yayıldığı İtaliyanın şimalında işə çıxan fəhlələrin qızdırması ölçülür, üçnövbəli iş rejimi tətbiq edilir ki, işçilərin sıxlığının qarşısı alınsın. Lakin belə tədbirlər qarşıya çıxan bütün çətinlikləri kökündən həll etməyə imkan vermir. Pandemiya epidemiyası ilə bağlı Avropa İttifaqına üzv olan ölkələrin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində müəyyən çətinliklər meydana çıxır.

Almaniyada hər il mövsümi işlərə fermerlər 300 minə qədər əcnəbi cəlb edirlər. Onların bir qismi Ukrayna və Polşadan gətirilir. Bu il isə əcnəbilərin mövsümi işlərə cəlb edilməsi tam aydın deyil. Avropa dövlətləri arasında özünütəcrid meyilləri və qloballaşmanın əleyhinə gedən proseslər isə güclənir. Həmçinin işəgötürənlərin əksəriyyətinin sanitar-epidemioloji şəraiti yarada bilməyəcəklərinə görə mövsümi işlərə gəlmək istəyənlər çəkinirlər. Əlavə tətbiq edilən güzəştlərin isə nə qədər faydalı olacağı hələ ki qaranlıqdır.

Avropa ölkələrinin vahid bazarı olsa da, artıq onların sərhədləri virusun yayılması ilə bağlı bir-birinin üzünə bağlanılır və tətbiq edilən qaydalar bu əlaqələrin daha da zəifləməsinə təkan verir. Nəticədə yüklərin daşınmasında gecikmələr baş verir, əlavə yoxlamalar, sərhədlərin qapanma müddətinin qeyri-müəyyən dövrədək uzanması ərzaq məhsullarının sürətlə daşınmasını ləngidir. Faktiki olaraq vahid Avropa bazarının çökmə ehtimalı artır.

Onu da qeyd edək ki, kənd təsərrüfatı məhsullarının daşınmasında ləngimələr, bir sıra məhsulların qiymətlərinin oynaması bütün dünyada müşahidə olunur. Artıq aprelin əvvəlindən Hindistandan buğdanın alınması iki həftə geri atılmışdır. Özü də bu yeganə fakt deyil. Ərzaq məhsullarının nəhəng idxalçıları bu tipli problemlərlə daha tez-tez üzləşirlər. Məsələn, ortaya çıxan bu cür logistika məsələləri düyü istehsalçılarına da təsir edir və onlar alıcılarına bu məhsulu dörd həftədir ki, dəniz limanlarının bağlanması üzündən göndərə bilmirlər. Bundan əlavə, kənd təsərrüfatı məhsullarının bazarlardan və ticarət pavilyonlarından supermarketlərə daşınması sürəti onlara olan tələbata ciddi təsir edir və bəzi məhsullara tələbat gözlənilmədən düşür. Son nəticədə istehsalçılar çətin vəziyyətdə qalır və dəyişən tələblərə uyğunlaşa bilmirlər.

Virusun yayılma qorxusu da bir sıra ölkələrdə kənd təsərrüfatı məhsullarının qiymətinin aşağı düşməsinə səbəb olur. Bunları vaxtında görmək və onların qarşısını almaq mümkün deyil, çünki bu ucuzlaşmalar heç bir məntiqə söykənmir və bu bəzi hallarda sırf koronavirusun yaratdığı qorxu ilə bağlıdır.

ABŞ-da artıq hamı evində yeyir, restoranlarda nahar edən yoxdur. Bu da delikates ətlərin ucuzlaşmasına səbəb olur. Bir sıra ölkələrdə isə broyler cücələrin qiyməti sürətlə enir. Üstəlik bütün dünyada kənd təsərrüfatı həddən ziyadə kreditləşdiyindən istehsalçılar dövlətlərindən dəstək umurlar. Çünki onlar belə güman edirlər ki, uzanan koronavirus böhranı aqrar sektorda çətinlikləri dərinləşdirəcək, idxaldan asılı ölkələrdə defisit yaradacaq.

Azərbaycana gəldikdə isə, biz fərqli reallıqların şahidi oluruq. Belə ki, ölkə əhalisinin tən yarısı rayonlarda yaşayır və demək olar insanların əksəriyyəti torpağa bağlıdır. Yəni bizdə işçi qüvvəsinin çatışmazlığı yoxdur.

Dünyanın aqrar bazarında ən ciddi problemlərdən biri kənd təsərrüfatı məhsullarının tarladan, bağ və bostandan piştaxtaya daşınarkən yolsuzluq üzündən sıradan çıxmasıdır. Bundan əsasən inkişaf etməkdə olan ölkələr əziyyət çəkirlər. Eyni zamanda bir sıra aqrar ölkələrdə anbarların çatışmazlığı, soyuducuların yetərincə olmaması da müəyyən itkilərə səbəb olur. Azərbaycan fermerləri bu təhlükələrdən də sığortalanıblar. Son 15 il ərzində bizdə müasir logistika sistemi qurulmuş, yeni anbarlar tikilmiş, soyuducular quraşdırılmışdır. Eyni zamanda yol infrastrukturu yenilənmiş, min kilometrlərlə yeni yollar salınmış, əsaslı təmir edilmişdir. Ən ucqar kəndlərdən belə məhsulların sürətli və itkisiz daşınması təmin olunmuşdur.

Yaz fəslində torpaq oyanır, təbiət cana gəlir və kənd təsərrüfatında işlərə start verilir. Amma şəhər və rayonlar arasında gediş-gəlişin qadağan olunması, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması və vətəndaşlardan evdə qalmalarının tələb edilməsi şübhəsiz ki, aqrar sektora da təsirsiz ötüşmür. Buna baxmayaraq kənd təsərrüfatında işlərin ahəngi pozulmur. Çünki Azərbaycan hökuməti vəziyyətlə bağlı geniş tədbirlər paketi hazırlayıb həyata keçirmişdir. Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara əsasən, respublika ərazisində kənd təsərrüfatı və ərzaq məhsullarının orta və ağır tonnajlı yük maşınları ilə daşınmasına məhdudiyyət yoxdur. Bu səbəbdən şəhərlərdəki supermarketlər və digər ərzaq satışı məntəqələrində heç bir qıtlıq müşahidə olunmur, kənd təsərrüfatı məhsullarının çeşidi və keyfiyyəti əvvəlki səviyyədədir.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Koronavirusdan qorunmağın sadə yolu: *özündən başla!*

Dünyanı öz əsirinə çevirən koronavirus canlar almaqda davam edir. Artıq COVID-19-a yoluxanların sayı 2 milyonu ötüb. 130 minə yaxın insan həyatını itirib.

Dövlətlər koronavirusla mübarizə üçün hər cür üsullara əl atırlar. Əksər ölkələr sərhədlərini bağlayıb, fövqəladə vəziyyət elan edib, insanların evdən çölə çıxması qadağan olunub. Azərbaycan dövləti də öz vətəndaşını qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirir. Ölkəmizdə vaxtında sosial izolyasiya və karantin rejimi tətbiq olunub. Qalır bircə vətəndaşın məsuliyyət hissi keçirərək qəbul olunmuş qərarlara qeyd-şərtsiz əməl etməsi, özünü bu bəladan qoruması...

### Əlamət olmasa da, zədə var

Son elmi araşdırmalar göstərir ki, 5 xəstədən 4-də virusun simptomları gizli və ya çox yüngül formada keçir ki, bunu da onlar özləri hiss etmirlər. Virusu təhlükəli edən də elə budur - xəstələr daşıyıcı olduqlarını bilmirlər və insanları virusa yoluxdururlar. Ancaq bu, daşıyıcının təhlükədən sovuşduğu demək deyil. Çünki elm adamları bu günlərdə belə bir nəticəyə gəliblər ki, koronavirus xəstəliyini simptomsuz keçirən insanların ağciyərləri yenə də zədələnir.

Belə ki, yaponiyalı alimlər "Diamond Princess" kruiz gəmisindəki koronavirus daşıyıcılarının kompüter tomoqrafiyasının nəticələrini araşdırıblar. Araşdırmanın nəticəsində məlum olub ki, gəmidə koronavirusa yoluxmuş 104 nəfərdən 76-da xəstəlik simptomsuz keçib. Bununla belə xəstəliyi yüngül keçirənlərin əksəriyyətinin ağciyərlərində dəyişiklik hiss edilib. Onların tənəffüs orqanlarında "tutqun şüşə effekti"nə rast gəlinib.

### Eynək taxın

Təəssüf ki, bəzi insanlar hələ də koronavirusun nə dərəcədə təhlükəli olduğunu ciddiyə almır, zərurət olmadığı təqdirdə evdən çölə çıxırlar. Maska və əlcək taxmaqla, əllərini spirtləməklə dəhşətli virusa yoluxmayacaqlarını zənn edirlər. Halbuki tibb mütəxəssisləri koronavirusun gözdən də keçə bilməsi barədə xəbərdarlıq edirlər. Deməli, maska və əlcək koronavirusdan qorunmağa kifayət etmir.

Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-oftalmoloqu Gültəkin Məmmədovanın sözlərinə görə, yüksək hərarət, öskürək, halsızlıq kimi əlamətlərlə xarakterizə olunan koronavirus infeksiyası digər hallarla da özünü büruzə verir: "Gözə infeksiyanın düşməsi əsasən əllərlə təmas zamanı yaranır. Ona görə də əllərin təmizliyi xüsusi olaraq qeyd edilir. Lakin təkcə təmas zamanı deyil, hava-damcı yolu ilə də konyunktivitə yoluxmaq mümkündür. Yuxarı tənəffüs yollarına keçən COVID-19 infeksiyası da əvvəlcə konyunktivitlə başlaya bilər. Yəni hərarət, halsızlıq olmadan və heç bir şikayətsiz konyunktivit infeksion xəstəliyin ilk əlaməti kimi meydana çıxa bilər".

Virusdan qorunmağa çalışsaq da, yoluxma ehtimalı qaçılmazdır. Vacib məqamlardan biri də əlamətlərin gözlərdə necə hiss olunması ilə əlaqədardır. Həkim-oftalmoloq bildirir ki, gözlərdə yad cisim hissiyyatı, yüngül qızartı, az da olsa selik şəklində ifrazat, yaxud qapaqlarda şişkinlik olması konyunktivitin başlandığının göstəricisidir.

G.Məmmədova deyir ki, gözləri qorumaq üçün eynəkdən istifadə hava-damcı yolu ilə yoluxma zamanı baryer rolunu oynaya bilər. Lakin yuxarı tənəffüs yollarından yoluxan COVID-19 infeksiyası da konyunktivit şəklində özünü göstərə bilər. Ona görə də maskadan istifadə edilməli, gigiyenik qaydalara ciddi riayət olunmalıdır.

Oftalmoloqlar hazırkı vəziyyətdə insanları linza taxmaqdan da uzaq durmağa çağırırlar. Çünki linzalar daha çox mikrob daşıyan məhsuldur. Mütəxəssislərin sözlərinə görə, əvvəla evdə oturmaq daha məqsədəuyğundur. Yox, əgər çölə çıxmaq məcburiyyəti varsa, o zaman gözləri eynəklə qorumaq gərəkdir. Belə ki, eynək yaxınlıqdakı xəstənin asqırma və ya öskürək damcılarının onun gözünə düşməsinin qarşısını alır. Lakin eynəkləri də tez-tez spirtlə təmizləmək, hara gəldi qoymamaq lazımdır.




### Birbaşa ürəyə təsir edir

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru Nuran Abdullayev COVID-19-un ağciyərə təsir etmədən birbaşa ürəyə təsir etməsi ehtimalını vurğulayıb. Buna səbəb Uhanda olan xəstələrin 20 faizinin birbaşa ürək şikayətləri ilə həkimə müraciət etmələri və onların ürək miokardında (ürək əzələsində) müvafiq dəyişikliklərin olduğunun sübuta yetirilməsidir. Özü də heç bir ağciyər xəstəliyinin simptomatikası olmadan! Həkimin sözlərinə görə, eyni xəstəlik gedişatı İtaliyada da müşahidə edildiyinə görə indi virusun birbaşa ürəyə də təsir etməsi ilə bağlı sual ortaya çıxıb. Bu da onu deməyə əsas verir ki, gizli ürək infarktı simptomları ilə gələn xəstəyə COVID-19 testi olunmalı və həkimlər artıq bunu mütləq nəzərə almalıdırlar.

### İybilmə və dadbilmə hissiyyatı itir

London Kral Kollecinin alimləri isə iybilmə və dadbilmə hissiyyatının itirilməsinin koronavirusun başlıca əlamətləri olmasına dair nəticəyə gəliblər. Mütəxəssislərin fikrincə, bu simptomlar müşahidə olunan şəxslərin 59 faizində koronavirus testi pozitiv çıxıb. Üstəlik, koronavirusun təyin edilməsi üçün bunlar qızdırmadan daha dəqiq göstərici olub.

Alimlər iybilmə və dadbilmə hissiyyatının itirilməsinin koronavirusa yoluxma ehtimalını 3 dəfə artırdığını bildiriblər və belə əlamətlər müşahidə olunarsa, insanların özlərini 7 gün təcrid etmələrini məsləhət görüblər.

### Əl əli yuyar…

Göründüyü kimi, koronavirus tibb aləminə hər gün yeni "sürprizlər" təqdim etməkdə davam edir. Elm hələ də bu "taclı bəla" qarşısında acizdir. Virusun dərmanı tapılmayıb. Dünya əhalisi təşviş, qorxu içindədir. Hər kəs bu mərəzə yoluxmamaq üçün müxtəlif üsullara əl atır. Halbuki koronavirusdan qorunmaq, əslində, o qədər də çətin, mürəkkəb deyil. İlk növbədə fərdi, profilaktik tədbirləri vaxtında və düzgün həyata keçirmək, gigiyenik qaydalara əməl etmək lazımdır.

Təmizlik imandan olduğu qədər, indi həm də sağ qalmaq üsuluna çevrilib. Dünyamızın əsir düşdüyü koronavirusdan xilas da ilk növbədə təmizlikdən keçir. Əlləri tez-tez və 20 saniyədən az olmamaq şərtilə sabunla, spirt tərkibli antiseptik vasitələrlə yumaq lazımdır. Əllərin tez-tez yuyulması ona görə vacibdir ki, bu viruslar ölçüsünə görə digərlərindən iridir. Axar suyun altında yuyulduqda asanlıqla xaric olur. Əllərin təmasdan sonra gündə bir neçə dəfə dezinfeksiya olunması vacibdir.

Koronavirusun əsas yoluxma mexanizmi hava-damcı yolu və ünsiyyətdir. Yəni bu, danışmaqla, görüşməklə keçən infeksiyadır. Bir insan xəstədirsə, danışdıqda, asqırıb öskürdükdə 2-3 metr məsafəni viruslarla çirkləndirə bilir. Həmin sahəyə daxil olan hər bir adam nəfəs aldıqda onun yoluxma ehtimalı var. Ona görə də birinci növbədə özündə xəstəlik əlamətləri hiss edən şəxslər maska taxmalıdırlar ki, xəstəliyi ətrafa yaymasınlar. Xəstə asqırdıqda, öskürdükdə ətrafa milyonlarla virus xaric edir. Yaxud asqıranda əlini ağzına tutur, sonra sağlam adamla həmin əllə salamlaşır və o biri adam da əlini üzünə-gözünə çəkir, beləliklə, virus asanlıqla ona da yoluxur. Odur ki, öskürərkən və ya asqırarkən ağzınızı bükülmüş dirsək və ya salfet parçası ilə örtün, daha sonra isə həmin salfet parçasını bağlı zibil qutusuna atın.

### Çoxlu maye için

Koronavirus yuxarı tənəffüs yollarına düşür, selikli qişaya yapışaraq çoxalır və iki sutkaya qədər orda qalaraq artır. Sonra yavaş-yavaş aşağı tənəffüs yollarına düşür. Ölüm halları da əsasən ağır sətəlcəmdə baş verir. Bu səbəbdən həkimlər çoxlu maye qəbul etməyi məsləhət görürlər. Çünki çoxlu maye içdikdə su yuxarı tənəffüs yollarına yığılan həmin virusları mədəyə tökəcək. Mədənin xlorid turşusu isə onları məhv edəcək, bununla da xəstələnmə ehtimalı azalacaq. Eyni zamanda boğazı qar-qara etmək də faydalıdır. Su içmədikdə, qar-qara etmədikdə insan nəfəs aldıqca virus artıb çoxalaraq aşağı tənəffüs orqanlarına düşəcək.

### Evdə qalın - sağlam qalın!

Koronavirusla mübarizə, əslində, insanın özünə başlamalıdır başlamalıdır. Heç kim fikirləşməsin ki, onun immuniteti güclüdür deyə xəstələnməz. Bu cür düşünən adamlar xəstələnməsələr belə daşıyıcı olub ailə üzvlərini, yaxınlarını yoluxdura bilərlər. Bu baxımdan koronavirusla mübarizənin əsas üsulu, xəstəlikdən ən yaxşı qorunma yolu karantin və izolyasiyadır. Hər kəs bu məsələyə vicdanla, məsuliyyətlə yanaşmalı, zərurət olmadığı təqdirdə evdən çölə çıxmamalıdır. Evdə nə qədər çox otursaq, başqa insanlarla ünsiyyətimiz də bir o qədər az olacaq, nəticədə özümüzü, ailəmizi, ətrafımızı bu bəladan qoruyacağıq. Özümüzü, ailəmizi qorusaq, elə xalqı da qorumuş olarıq. Karantin rejiminə əməl edin, evdə qalın - sağlam qalın!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

---

## Aprel şəhidləri

# Onlar qısa, amma şərəfli döyüş yolu keçiblər

**Aprel döyüşləri Azərbaycanın şanlı tarixidir. Bu tarixin yazılmasında şəhidlik zirvəsinə ucalanlarımızla xalqımız fəxr edir. Aprel döyüşlərində Azərbaycan Texniki Universitetinin 4 məzunu - Müşfiq Orucov, Əbdülməcid Axundov, Mahir Quliyev və Elvin Mirzəyev də şəhid olublar.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Aprel dərsləri" haqqında fikrini ifadə edərkən demişdir: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın birliyini, vətənpərvərliyini, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır..."

Azərbaycan əsgəri Müşfiq Orucov ön cəbhədə göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub. Ötən dörd il ərzində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə doğma, səmimi münasibətinin, onların sosial qayğılarına olan yanaşmasının şahidiyik.

2016-cı il aprelin 5-də Tərtərdə düşmənlə gedən döyüşlərdə şəhid olan Müşfiq Orucov yüksək balla qəbul olduğu Azərbaycan Texniki Universitetinin Avtomatika və kompüter texnikası (indiki İnformasiya və telekommunikasiya texnologiyaları) fakültəsinin məzunu idi. Aprel döyüşləri zamanı AzTU-nun qəhrəmancasına şəhid olan 4 məzunundan biridir. Onu universitetin istedadlı və bacarıqlı tələbəsi, eyni zamanda olduqca vətənpərvər, cəsarətli bir gənci kimi tanıyırdılar. Ali təhsil aldığı müddətdə fəallığı və nümunəviliyi ilə seçilirdi.

O, hərbi xidmətə 2015-ci ilin iyul ayında - ölümündən 9 ay əvvəl getmişdi. Daha doğrusu, universiteti bitirdikdən sonra, 2016-cı ilin iyununda Naftalan şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlamışdı. Evə, ailəyə, doğmalarının yanına qayıtmağa cəmi 3 ay qalmışdı.

M.Orucov "Xalqımız yaşasın, parçalanmış torpağımız birləşsin" amalına xidmət edərək, düşmənlə mübarizədə böyük qəhrəmanlıq göstərdi. Aprelin 5-də şəhid əsgərimiz böyük izdihamla Bakıda Dədə Qorqud qəbiristanlığında dəfn edildı. O, sevdiyi vətən torpağı uğrunda gözünü qırpmadan canını qurban verdi. Azərbaycan hərb tarixinin şanlı səhifəsini digər Aprel şəhidləri ilə birgə yazdı.

Müşfiq silahdaşları ilə birlikdə cəmi dörd günə böyük bir ərazinin Azərbaycan Ordusunun nəzarəti altına keçməsində igidlik göstərdi. Bu gün səngərdə düşməni nəzarətdə saxlayan hər bir Azərbaycan oğlu da həmin qəhrəmanlığı etməyə hazırdır. Çünki Müşfiq kimi canını vətənə qurban verən igidlərin, Aprel şəhidlərinin ömür yolu onlara həyat dərsi olub.

O, vətənpərvər övlad idi, onun üçün hər şeydən əvvəl torpaq sevgisi gəlirdi. Bu hissləri ona ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı müəllimi işləyən atası Arif Orucov aşılamışdı. Anası isə Müşfiqi hələ balaca olarkən əlindən tutub gəzintiyə apararkən Şəhidlər Xiyabanından başlayırdı.

Müşfiq və onun silahdaşları yaddaşlarda yaşayır, onlar haqqında kitablar yazılır, filmlər çəkilir. Aprel döyüşlərində isə Azərbaycanın ləyaqətli övladları düşmənə öz layiqli yerini göstərdi. Bu döyüşlərdə şəhid olanların xatirəsi xalqımız tərəfindən daim əziz tutulacaq, onların qəhrəmanlıqları gələcək nəsillərə nümunə kimi təbliğ ediləcək.

***Əsmər NAMİQQIZI,***
***Azərbaycan Texniki Universitetinin doktorantı***

---

# *Leyla ABDULLAYEVA:* "Ermənistanın təşkil etdiyi "seçkilər" hüquqi qüvvəsi olmayan qurama oyundan başqa bir şey deyil"

Azərbaycan Respublikası Xarici İşlər Nazirinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma "seçkilər"in ikinci turu ilə bağlı sualını cavablandırıb.

AZƏRTAC-ın məlumatına görə, Leyla Abdullayeva bildirib ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı ölkə tərəfindən keçirilən qanunsuz "seçkilər"lə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyinin mövqeyi bu il martın 31-də ifadə edilib. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də keçirilən 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə bu məsələyə münasibət bildirərək qeyd etdi ki, "bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır". Bir daha vurğulayırıq ki, işğalçı ölkənin təşkil etdiyi bu "seçkilər" neçənci mərhələsinin keçirilməsindən asılı olmayaraq, hər hansı hüquqi qüvvəsi olmayan qurama oyundan başqa bir şey deyildir.

"Ölkəmizin müvəqqəti işğal altında olan Dağlıq Qarabağ bölgəsindəki bu qanunsuz aktla bağlı beynəlxalq ictimaiyyətin birmənalı mövqeyinə bir daha istinad edərək, qondarma "seçkilər" və onların nəticələrinin çoxsaylı beynəlxalq təşkilat və dövlətlər tərəfindən rədd edildiyini xatırlatmaq istərdim. Qondarma "seçkilər"lə bağlı beynəlxalq ictimaiyyətin üzvləri tərəfindən hələ də bəyanatlar verilməkdə davam edir və bu xüsusda Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə olunur.

Azərbaycan ərazisində seçkilər ölkəmizin Konstitusiyasına uyğun olaraq keçirilir və konkret olaraq ölkəmizin Dağlıq Qarabağ bölgəsində seçkilər hərbi işğal amili aradan qaldırıldıqdan sonra və bölgənin hər iki icmasının iştirakı ilə baş tuta bilər. Bu məsələdə hər hansı əlavə şərhə ehtiyac duyulduğunu zənn etmirəm", - deyə Leyla Abdullayeva vurğulayıb.

---

# Ermənistan acı məğlubiyyətin təsirindən ayıla bilmir

## Azərbaycanın diplomatik gedişləri Paşinyanı okeanın o tayında çıxılmaz vəziyyətə salıb

Bu gün Ermənistan növbəti məğlubiyyət sindromunu yaşayır. Azərbaycanın diplomatik gedişləri işğalçı ölkəni okeanın o tayında çıxılmaz vəziyyətə salıb. İşğal altında olan Dağlıq Qarabağa yardımın dayandırılması bunun real təsdiqidir.

Məlum olduğu kimi, son aylarda erməni lobbi təşkilatlarının və konqresmenlərin fəal səylərinə baxmayaraq, ABŞ Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırıb.

Amerika Tədqiqatları Erməni Mərkəzi yardımın bərpası üçün bütün cəhdlərin səmərəsiz qaldığını bildirib. Bu xüsusda qurum bildirir: "Tramp Administrasiyası Qarabağda reallaşdırılan minalardan təmizlənmə proqramına ayrılan vəsaitin ixtisarı barədə qərar qəbul edib. Amerika Tədqiqatları Erməni Mərkəzi dəfələrlə Azərbaycan hakimiyyətinin aktiv fəaliyyəti, o cümlədən ABŞ Milli Təhlükəsizlik Şurasında öz maraqlarının təmini üçün xərclədiyi pullar barədə məlumat təqdim edib.

Məhz ABŞ Milli Təhlükəsizlik Şurası bu proqramın gələcəyini müəyyən edəcək. Amma görünən budur ki, yardımlar ayrılmayacaq. Qeyd etmək lazımdır ki, ABŞ Ermənistan istisna olmaqla Qarabağın müstəqilliyini tanımadan ona birbaşa maddi yardım göstərən yeganə dövlət idi".

Erməni mediası yazır ki, yardımın bərpası üçün bütün cəhdlər tam iflasa uğrayıb. Baş verənlərlə bağlı erməni ekspert Qarpis Paşoyan qeyd edir ki, hadisə Ermənistan hökumətinin ən böyük məğlubiyyətlərindən biridir: "Son iki ildə Vaşinqtonla konstruktiv dialoqa başlamaq üçün faktiki olaraq heç bir iş görülməyib. Üstəlik, Paşinyanın kabineti ardıcıl fəaliyyəti ilə Ermənistan-Amerika əməkdaşlığının ən pis və əlverişsiz mərhələsini qeydə alıb. Dövlətlərarası münasibətlər heç vaxt belə soyuq və qeyri-müəyyən olmayıb.

Ermənistanın məğlubiyyəti şübhəsiz ki, Azərbaycanın qələbəsidir. Bu vəziyyətin yaranmasında Azərbaycanın lobbi təşkilatları da böyük rol oynayıb. Lakin Ermənistan və ümumilikdə erməni amili öz yerində olsaydı, Azərbaycan lobbisi heç vaxt bu şəkildə irəliləyiş əldə edə bilməzdi".

Paşoyan etiraf edir ki, Vaşinqton üçün Azərbaycan həmişə Ermənistana nisbətən daha vacib əhəmiyyətli olub: "Bütün bunlarla yanaşı, bu geosiyasi üstünlük keçmişdə erməni amili olan tarazlıq maneəsi ilə müqavimətlə qarşılaşıb. Tramp prezident olduqdan sonra Azərbaycanın əhəmiyyəti iki dəfə artdı və tarazlaşdırıcı erməni amili isə zəiflədi. Yəni ABŞ-ın üstünlüyü, Azərbaycan lobbiçiliyinin fəallaşması və erməni amilinin passivləşməsi kontekstində Vaşinqton "iki erməni dövlətinə" ciddi zərbə vuran yeni bir siyasət ortaya qoydu. Bütün bunlarla yanaşı, qürurlu Ermənistan vətəndaşları Konqres tərəfindən erməni soyqırımının tanınmaması kimi qeyri-siyasi faktla fəxr edə bilərlər. Paşinyan isə "misli görünməmiş" Ermənistan-Amerika münasibətlərinin təbliğat illüziyası kontekstində, əlbəttə ki, hakimiyyətinin ən böyük uğuru kimi təqdim edərək, bu nailiyyəti mənimsəyə bilər".

Məsələyə yenidən münasibət bildirən erməni politoloq Suren Sarkisyan qeyd edir ki, yardımın bərpasını gözləməyə dəyməz. Qarabağa ABŞ yardımının dayandırılmasının əsl səbəbi Ermənistan minaaxtaranlarının Suriyada olmasıdır. Bildirib ki, ABŞ bunu yolverilməz hesab edib və Ermənistan hakimiyyətinə dəfələrlə xəbərdarlıq edib.

Xatırladaq ki, bundan əvvəl də ABŞ Dövlət Departamenti Ermənistanın Suriyaya hərbi heyət göndərməsi faktına kifayət qədər kəskin reaksiya verib və mina təmizləyənlərdən, həkimlərdən və onların birbaşa təhlükəsizliyini təmin edən erməni mütəxəssislərdən ibarət, ümumi sayı 83 nəfər olan erməni hərbi heyət hələ də Suriyadadır.

Erməni mütəxəssislər Hələb şəhərinin ətraf yaşayış məntəqələrində minadan təmizləmə, əhalinin minalara qarşı məlumatlandırılması, tibbi xidmətin göstərilməsi kimi fəaliyyətləri həyata keçirir. Suriyada Ermənistan mütəxəssislərinin yerləşdirilməsi və təminatı məsələləri Rusiya tərəfinin dəstəyi ilə həyata keçirilir. Elə ABŞ-ı da narazı salan məhz budur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

---

# Vətənpərvərlik və şəhidlik zirvəsi

**Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə universitetlər arasında keçirilən "Azərbaycan naminə" adlı esse yazı müsabiqəsində 1-ci yerə layiq görülən yazını sizlərə təqdim edirik.**



Bu yazıya başlarkən çoxlu suallar qarşıma çıxdı. Vətən nədir? Yurd nədir? Haradan, nədən, kimdən başlanır Vətən?

Qəlbimdən gələn sözlər sətirlərə düzüldü.

Vətən məndən, səndən, bizdən başlanır. Vətən doğulduğumuz yuvadan, boy atdığımız torpaqdan, küçədən, döngədən başlanır. Vətən qaçarkən yıxıldığımız, dizlərimizin sıyrıldığı, üz-gözümüzün əzildiyi çınqıl daşından başlanır. Vətən kollarından böyürtkən yığıb yediyimiz, bənövşələri dərib sinəmizə taxdığımız, çaylarında, göllərində uşaq kimi oynadığımız, qarğı atımızı çapdığımız, ağaclarının budaqlarından sallandığımız ormanından başlanır.

Vətən əvvəlcə evimiz, sonra küçəmiz, kəndimiz, şəhərimiz, ən sonda Vətənimiz dediyimiz andan başlanır. O an ki, torpaq qoynunda böyütdüyü övladının qanı ilə - şəhid qanı ilə suvarılır. Vətən şəhidimin qanının töküldüyü, qoynuna sığındığı yerdən başlanır. Vətən şəhid qanının laləliyə çevirdiyi Lələtəpədə üçrəngli bayrağın sancıldığı yerdən başlanır. Vətən şəhidlərimizin geridə qoyduqlarının həsrətli gözlərindən başlanır. Mənim üçün Vətən şəhid xanımının dilindən süzülən "Vətənim sənsən" kəlməsindən başlanır. O kəlmə ki, bir ömür boyu həsrətlə gözləyəcəyi əzizinin yanğısına su kimi səpiləcək. O kəlmə ki, çətin gündə çiynini söykədiyi, sirrini bölüşdüyü əzizinin itkisinə mətanətlə dözərək qəlbindəki ağrıları ovudacaq.

Hər qarışı şəhid qanı ilə yoğrulan, şəhid qoxusu duyulan bu torpaq bizə ötürülən əmanətdir. "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" demişlər babalarımız. Torpağı qoruyarsan, əzizləyərsən, uğrunda fədakarlığa hazır olarsan, Vətən olar.

Bu yurdun uğrunda, bu sevgili məmləkət naminə kimlər fəda olmadı ki... Şah babamızın miras qoyduğu Azərbaycan üçün necə canlar şəhid oldular. Raquflar, Asiflər, Şirinlər, Yaqublar, Pəncəlilər, Rasimlər, Ramizlər, Canpoladlar, Əbdülməcidlər, Müşfiqlər, Ziyalar, Muradlar, Samidlər, Təbrizlər daha kimlər, kimlər... Necə hərbçilər, komandirlər, oğullar, atalar, həyat yoldaşları... Hər biri bir elin, bir obanın arxa-dirəyi olan igidlər... Geridə qoyduqlarını düşünmədən ölümə atılan fədailər... Körpə balalarının gözündəki sevinci əbədi dondurub "Vətən sağ olsun" deyərək torpağın bağrına köçənlər...

*Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,*
*Nə də ulduzlar kimi parlayıb sönməməkdir.*
*Ölməzliyi düşünmək boşuna bir əməkdir,*
*Qəhrəmanlıq, vuruşub, bir daha dönməməkdir!*

Onlar vuruşub dönməməyi seçdilər. Onlar bizə Vətəni sevməyi, sözdə yox, əməldə göstərdilər. Şəhidlər bizə azadlığın verilmədiyini, alındığını sübut etdilər.

*Bəlkə də, borcundan çıxmadım, Vətən!*
*Ömür bahar deyil, bir də qayıtsın.*
*Ölsəm də, qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm bir ovuc torpağın artsın.*

Şəhidlər tapdaladığımız bu qara torpağın müqəddəs olduğunu bizə anlatdılar. Şəhidlər düşmən əlində inləyən elin, obanın bağrı yaralı Qarabağın harayını bizə çatdırdılar. Şəhid komandir anasının əsirlikdə olan qəbrini ziyarət etməklə ana sevgisinin ucalığını bizə göstərdi. Ana olan yerdə ölümü də gözə almağın mümkün olduğunu bildirdi. Şəhidlər bizə ölümdən sonra da həyatın var olduğunu, yaşamağın mümkünlüyünü göstərdilər. Sanki bizə dedilər:

*Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı,*
*Düşün altındakı minlərcə kəfənsiz yatanı.*

Ey vətənimin mərd oğulları! Ey cənnət qoxulu şəhidim! Sizi düşünməmək olarmı? Sizi unutmaq olarmı? Unutsaq, nələri unudaq gərək...

Keçmişimizi - Zəngəzuru, Borçalını, 20 Yanvarı, Qarakənd faciəsini, Xocalını, Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Zəngilanı, Qubadlını, Cəbrayılı, Xankəndini, 2016-nın aprelini unudaq gərək.

Haray çəkib gücüm yetdiyi qədər bağırmaq istəyirəm, duymayanlara eşitdirmək istəyirəm: "Axı mənim bütöv Vətənim vardı?! Parçalanmayan, hissə-hissə qoparılmayan məmləkətim vardı?! "Səndən qeyri biz hər şeyi bölə bilirik, səndən qeyri biz hamımız ölə bilirik - dediyimiz Azərbaycanımız, Qarabağımız vardı!"

Həyatına didərginlik yazılmış analarımızın laylası qulaqlarımda cingildəyir, sanki Qarabağa ağı deyir: Bir zamanlar musiqi beşiyi, gözəllər diyarı, mərd igidlər oylağı Qarabağım oy...

Bir vaxtlar haqqında "Külli Qarabağın abihəyatı, nərmə-nazik bayatıdır, bayatı" deyilən yurdum oy...

Düşmən əlində əsir qalan, nalə çəkən elim oy...

Övladları pərən-pərən, uğuruna canını qurban verən Raqufum, Şirinim, Asifim, Muradım, Qabilim, Vaqifim, Mehmanım oy, oy...

Yox... Yox... Ağlama şəhid anası! Ağlama şəhid yadigarı! Bizə ağlamaq, unutmaq yaraşmaz. Bizim "bu gün gərək hər anımız Vətən desin". Vətən desin ki, onu qoruyaq, uğrunda fədakarlığa hazır olaq. Düşmən sevinməsin ki, Qarabağımızı əsir alıb. Gec-tez biz Qarabağda üçrəngli bayrağımızı sancacağıq. Məhz bu inam bizi yaşadır, yeni işlər görməyə vadar edir.

Əgər bu gün Qarabağın əlimizdə olan kiçik bir kəndində Şuşanın saflığını, təmizliyini əks etdirən səslər - Qarabağ bülbülləri yetişirsə, demək ki, yol yaxındır. Tezliklə o bülbüllər Cıdır düzündə, Topxana meşəsində cəh-cəh vuracaqlar.

Əgər şəhid anası əlinə silah alıb, "mən də döyüşə hazıram" deyirsə, bu millətin qarşısında kimsə dura bilməz. Aprel döyüşlərində ordumuzun ən adlı-sanlı komandirləri öndə getmişdisə, əsgərlərini qorumaq üçün özünü qurban verən, əsgərini övladı kimi sevən komandirlərimiz vardırsa, düşmən qorxsa yaxşıdır. Əgər bu gün şəhid komandirin kiçik yaşlı oğlu yaralı oyuncaq əsgərini sağaltmaq üçün çalışırsa, deməli, bu millətin qəlbinin sevgisi, mərhəməti tükənməzdir. Əgər bu gün dövlət başçımız siyasi arenada mənfur erməniləri cavabı ilə çıxılmaz duruma salırsa, deməli, biz Varıq, yenilməzik. Biz gənclər dövlətimizlə bir olmalı, "Hər şey Vətən üçün" deməli, gücümüzü göstərməliyik.

Ona görə də:

*Sən ey mənim mərd xalqım!*
*Qalx, qalx, qoy yer titrəsin məhvərindən!*

***Rəşad ƏHMƏDOV,***
***Bakı Ali Neft Məktəbinin Kimya Mühəndisliyi fakültəsinin III kurs tələbəsi***

# Dövlət Komitəsi və "Azərişıq" ASC birlikdə yardım aksiyası həyata keçiriblər






Aprelin 15-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və "Azərişıq" ASC tərəfindən Bakı şəhərindəki məcburi köçkün tənha şəxslərə və aztəminatlı ailələrə yardım göstərilib.



Gündəlik tələbat mallarından ibarət olan 1200 ərzaq bağlaması paytaxtın Yasamal rayonunda - Azərbaycan Texniki Universitetinin və Azərbaycan Memarlıq və İnşaat Universitetinin yataqxanalarında, 1800 ərzaq bağlaması isə Binəqədi rayonu ərazisindəki müxtəlif obyektlərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərə verilib.

Risk qrupuna daxil olan insanların evdə qalması və virusa yoluxmaqdan qorunması məqsədi güdən yardım aksiyası zamanı məcburi köçkünlərə infeksiyanın tez bir zamanda qarşısının alınması məqsədilə həyata keçirilən sosial izolyasiya tədbirlərinə riayət etmək tövsiyə olunub.

"Azərişıq"ın "ASAN xidmət"lə iş və Elektron İdarəetmə Depatamentinin direktoru Elsevər Rüstəmli jurnalistlərə açıqlamasında bildirib ki, təmsil etdiyi qurum ənənəvi olaraq bu tipli aksiyalarda iştirak edir: "Koronavirus pandemiyasının ölkəmizin ərazisində geniş yayılmasının qarşısının alınması üçün tətbiq edilən karantin rejimində əhalinin həssas qrupları, o cümlədən məcburi köçkünlər maddi dəstəyə ehtiyac duyurlar. Bu sahədə dövlətimizin müəyyənləşdirdiyi tədbirlərlə yanaşı, ayrı-ayrı qurumlar tərəfindən də sosial aksiyalar həyata keçirilir. "Azərişıq" olaraq biz də bu aksiyaya qoşulmuşuq və belə aksiyalar davamlı olacaq. Rəhbərliyimizin ciddi tapşırığı ilə növbəti ayda da belə bir aksiya həyata keçiriləcək".

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Elşən Əliyev də açıqlamasında təmsil etdiyi qurumun ölkə rəhbərliyinin bu təşəbbüsünü dəstəklədiyini və davamlı olaraq bu aksiyaları keçirdiklərini qeyd edib.

Məcburi köçkünlər karantin rejimi müddətində onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkür ediblər.

***"Azərbaycan"***

# "Bravo"dan 15-dək rayon və şəhər üzrə 2400 tənha yaşlıya və əlil şəxsə ərzaq yardımı edildi







Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırda evlərində sosial xidmətlərlə təmin edilən tənha yaşlılara və əlilliyi olan şəxslərə sosial dəstək tədbirlərinə fəal şəkildə qoşulanlardan biri də "Bravo" supermarketlər şəbəkəsidir.

"Bravo" tərəfindən 15-dək rayon və şəhər üzrə 2400 tənha yaşlıya və əlil şəxsə ərzaq yardımı edilib. Ərzaq yardımları həmin rayon və şəhərlərdə (Tovuz, Bərdə, İsmayıllı, Naftalan, Qusar, Şəmkir, Ucar, Tərtər, Yevlax, Neftçala, Biləsuvar və s.) sosial xidmətçilər və Yeni Azərbaycan Partiyasının könüllüləri ilə birgə vətəndaşlara təqdim edilib.

Yaşlı nəslə diqqət və qayğının əməli ifadəsi olan bu kimi xeyirxah tədbirlər həssas qrupların rifahına, eyni zamanda, hazırkı xüsusi karantin rejimi dönəmində "evdəqal" çağırışına mühüm bir dəstəkdir.

Ərzaq yardımlarının "Bravo" tərəfindən qarşıdakı günlərdə də davam etdirilməsi nəzərdə tutulur.

***"Azərbaycan"***

# Ötən sutka ərzində atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Pilotsuz uçuş aparatları heyətləri təlim-məşq uçuşları yerinə yetirir

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq müxtəlif təyinatlı pilotsuz uçuş aparatları (PUA) heyətləri təlim-məşq uçuşları yerinə yetirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlim prosesində heyətlər əməliyyat-taktiki biliklərini artırır, ən müasir trenajorlarda praktiki vərdişlərini təkmilləşdirirlər.

PUA heyətləri şərti düşmənin müdafiəsinin dərinliyindəki hədəfləri vaxtında və dəqiq aşkar etməklə qarşıya qoyulan tapşırıqları icra edirlər.



"Büdcə təşkilatlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin, büdcədənkənar dövlət fondlarının, səhmlərinin (paylarının) 30 faizi və ya daha artıq hissəsi dövlətə məxsus olan təsərrüfat cəmiyyətlərinin illik maliyyə fəaliyyəti haqqında məlumatlarının, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyanın internet informasiya ehtiyatlarında açıqlaması Qaydası"na

**2 nömrəli əlavə**

**Maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən tərtib edən təşkilatların illik maliyyə fəaliyyəti haqqında məlumatlarının, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyanın internet informasiya ehtiyatlarında açıqlanması**

**Forma № 2**

**2019-ci il üzrə**

| VÖEN | 9 | 9 | 0 | 0 | 0 | 3 | 7 | 7 | 1 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|

Təşkilatın adı : "Azərpoçt"Məhdud Məsuliyyətli Cəmiyyəti

Ünvan: Üzeyir Hacıbəyov 36

Elektron poçt ünvanı: office@azerpost.az

| Sıra №-si | Göstəricilərin adı | Hesabat dövrü üzrə (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Gəlirlər | **48039804** |
| 1.1. | əsas əməliyyat gəlirləri | 45562274 |
| 1.1.1. | o cümlədən, dövlət büdcəsindən verilmiş vəsait üzrə gəlirlər | |
| 1.2. | sair əməliyyat gəlirləri | 2477530 |
| 1.2.1. | o cümlədən, dövlət büdcəsindən verilmiş vəsait üzrə gəlirlər | 2433250 |
| 1.3. | fəaliyyətin dayandırılmasından yaranan gəlirlər | |
| 1.4. | fövqəladə gəlirlər | |
| 1.5. | maliyyə gəlirləri | |
| 2. | Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı artımlar (azalmalar) | |
| 3. | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | 1857100 |
| 4. | Xərclər | **46552502** |
| 4.1. | istifadə edilmiş material ehtiyatları | 2999773 |
| 4.2. | işçi heyəti üzrə xərclər | 23548798 |
| 4.3. | amortizasiya xərcləri | 6505692 |
| 4.4. | digər əməliyyat xərcləri | |
| 4.5. | sair əməliyyat xərcləri | 13452208 |
| 4.6. | fəaliyyətin dayandırılmasından yaranan xərclər | |
| 4.7. | maliyyə xərcləri | 46031 |
| 4.8. | fövqəladə xərclər | |
| 5. | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | |

Rəhbər

Baş mühasib

"06" aprel 2020-cı il

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
### *tender elan edir*

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binası və həyətyanı sahəsindəki dekorativ otaq və bağ bitkilərinə aqro xidmətlərin göstərilməsinin, 2020-ci il üzrə nəzərdə tutulan bütün tədbir və təbriklər üçün gül, səbət və əklillərin satın alınması.

**İştirak haqqı: 50 manat**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Ünvan: Bakı şəhəri Az 1022, S.Vurğun küçəsi, 135**
**Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:**

**A1. Benefisiar (alan) bank**
**Adı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. BİK: CTREAZ22**
**B2. Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Hesab №: AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7,**
**Büdcə təsnifat kodu - 142330.**
**VÖEN: 1400108191**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı verilməlidir və təminat tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini Portal vasitəsilə Portalda təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri elektron Portalda təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19 mart 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsiilə içməli su təchizat sistemlərində suyun xlorator tipli qurğularla zərərsizləşdirilməsi üçün lazım olan avadanlıqların satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 20 aprel 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 28 aprel 2020-ci il saat 16:00-a, təkliflərin açılışı isə 29 aprel 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19 mart 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə generatorların əsaslı təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 20 aprel 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 28 aprel 2020-ci il saat 16:00-a, təkliflərin açılışı isə 29 aprel 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel:431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Texnikalar üçün ehtiyat hissələrinin satın alınması məqsədi ilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş açıq tenderdə ən az qiymət təklifi vermiş "SHELTER GROUP" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 296.980,75 manat məbləğində 13 aprel 2020-ci il tarixli müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Konstitusiya Məhkəməsi Aparatının əməkdaşı Günar Xəlilzadəyə qardaşı

**ANAR XƏLİLZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elşad Həsənov və Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi AMEA-nın müxbir üzvü

**KƏRİM KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin əməkdaşı Nadirə Bədəlbəyliyə anası

**ÜLFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası İcra Katibliyinin kollektivi YAP Şirvan Şəhər Təşkilatının sədri

**SAMİD HÜSEYN OĞLU ABIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin 1980-ci il məzunları tələbə yoldaşları

**QALİB HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7353
Sifariş 931
Qiyməti 40 qəpik